

Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır



# "Azərbaycan xalçası-ilmələrin rəqsi"

## Heydər Əliyev Fondunun dəstəyi ilə təqdim olunacaq

Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 26 may 2022-ci il, cümə axşamı / № 092 (6194). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Tarixin mühüm anında

## Yaxşı ki, Heydər Əliyev vardı... Yaxşı ki, İlham Əliyev var!



Bax səh. 3

## Müasir nəqliyyat infrastrukturu Avropa ilə Asiya arasında qarşılıqlı əlaqədə mühüm rol oynayacaq

Bax səh. 2

## Azərbaycanın haqlı qürurunu... Türkiyə böyük xoşbəxtlik hissi ilə duyur

Bax səh. 2

# Böyük Qayıdış

## Qururuq, yaradırıq və yaşadacağıq!

44 günlük Vətən müharibəsi Azərbaycanın gücünü - qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bir daha bəlli oldu ki, güclü iqtisadiyyata, hərbi potensiala, siyasi-diplomatik imkanlara, müsbət beynəlxalq imicə malik olan Azərbaycan istənilən strateji hədəfi vaxtında və dəqiq yerinə yetirmək əzmindədir. Postmüharibə dövrü də bu gerçəkliyi ifadə edir - Azərbaycan yeni mərhələdə qarşıda duran milli məqsədləri reallaşdırmaq iqtidarındadır. Xüsusilə də, Böyük Qayıdış planını.

Zəfər yürüşü davam edir

İftixar hissi ilə qeyd edirik ki, bu gün tarixi Qələbə ovqatında Zəfər yürüşü davam edir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin...

Bax səh. 2

## İqtidar-müxalifət əməkdaşlığının keçmişi, bu günü və perspektivləri...

Bax səh. 7



# Azərbaycanın sabitlik və təhlükəsizlik modeli

## Özümüzə güvənirik, öz gücümüzlə təmin edirik!

Bax səh. 5

## "Taxıl OPEK"i...

Bax səh. 5

## Növbəti "11 sentyabr" planı...

Kreml bu tarixdə sürpriz referendum keçirə bilər

Bax səh. 6

## Macarıstanda fövqəladə vəziyyət: məcburi tədbir, yoxsa manipulyasiya?

Bax səh. 6

# Müasir nəqliyyat infrastrukturu Avropa ilə Asiya arasında qarşılıqlı əlaqədə mühüm rol oynayacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Estoniya Respublikası parlamentinin sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla Estoniya arasında ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək qarşılıqlı təmasların önəmini qeyd etdi və bu baxımdan Azərbaycan parlamenti sədrinin Estoniyaya, Estoniya parlamenti sədrinin isə ölkəmizə səfərinin həm ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənməsinə töhfə verdiyini bildirdi.

Prezident İlham Əliyev Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya səfərinə toxunaraq bu səfərin ermənilərin həmin ərazilərdə işğal dövründə törətdikləri genişmiqyaslı dağıntıları öz gözləri ilə görmələri baxımından çox önəmli olduğunu vurğuladı.

Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunan dövlətimizin başçısı Brüsselə son səfərinin nəticələrini çox müsbət qiymətləndirdi və səfər zamanı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin bəyanatını qeyd edərək, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasında vacib rol oynadığını bildirdi. Dövlətimizin başçısı Avropa İttifaqı ilə əlaqələrin ölkəmiz üçün önəmini qeyd edərək, bu əlaqələrin çoxşaxəli olduğunu və ənənəvi enerji sahəsindən əlavə digər istiqamətləri də əhatə etdiyini dedi və qeyd etdi ki, ölkəmizdə yaradılan müasir nəqliyyat infrastrukturu və Azərbaycanın Xəzəryanı dövlətlər, eləcə də Qərb istiqaməti üzrə bağlantıları Avropa ilə Asiya arasında qarşılıqlı əlaqədə çox mühüm rol oynayacaq.

Estoniya parlamentinin sədri Yuri Ratas, ilk növbədə, 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik etdi, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasının önəmini vurğuladı. Yuri Ratas Bakıya səfəri zamanı səmərəli və məhsuldar görüşlər keçirdiyini diqqətə çatdırdı.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



# Azərbaycanın haqlı qürurunu...

## Türkiyə böyük xoşbəxtlik hissi ilə duyur

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğandan**

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

**Hörmətli cənab Prezident, Əziz Qardaşım.**

Can Azərbaycanın Müstəqillik Günü münasibətilə xalqım adından və şəxsən öz adımdan Zati-alinizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu mühüm və əlamətdar ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci kimi qəbul etdiyi qardaş Azərbaycanın haqlı qürurunu və həyəcanını ürəyində böyük xoşbəxtlik hissi ilə duyur.

"Bir millət, iki dövlət" şüarı ilə davam etdirdiyimiz mükəmməl səviyyədəki əlaqələrimizi Şuşa Bəyannaməsinə uyğun olaraq müttəfiqlik iradəsi ilə gücləndirdiyimizə görə məmnunluq hissi keçirirəm. Ortaq səylərimiz, nümunəvi həmrəyliyimiz və sarsılmaz qardaşlığımızın keçmişdə olduğu kimi, gələcəkdə də regionumuzda sülhün, rifahın və sabitliyin ən böyük təminatçısı olmaqda davam edəcəyinə ürəkdən inanıram.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı və xoşbəxtlik arzulayır, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifahının davamlı olması üçün ən xoş diləklərimi bir daha ifadə edirəm.

# İqtidar-müxalifət əməkdaşlığının keçmişi, bu günü və perspektivləri...



Mayın 25-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ilə Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu arasında görüş keçirilib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən bildiriblər ki, görüşdə şöbə müdiri ölkəmizdə siyasi dialoq mədəniyyətinin və cəmiyyətin inkişafı naminə həyata keçirilən iqtidar-müxalifət əməkdaşlığının keçmişi, bu günü və perspektivlərindən söz açıb, siyasi tariximizin zənginləşməsində, dövlətçiliyimizin möhkəmlənməsində siyasi partiyaların rolunun önəmli olduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi islahatlar nəticəsində siyasi partiyaların fəaliyyəti üçün geniş zəmin yaradıldığı, həmçinin siyasi partiyaların qərargahla təmin olunması, qurultaylarının nəticələrinin dövlət qeydiyyatına alınması, fəaliyyətlərinin legitimləşdirilməsi, ölkədə fəaliyyət göstərən dövlət və özəl media resurslarına maneəsiz çıxış imkanlarının yaradılması, ölkədə milli və siyasi həmrəyliyin təmin olunması, yeni siyasi partiyaların dövlət qeydiyyatına alınması və digər məsələlər yeni siyasi konfiqurasiyanın əsas konturları kimi qeyd olunub. Şöbə müdiri, həmçinin əksər siyasi partiyaların sağlam iqtidar-müxalifət dialoqunun və çoxpartiyalı siyasi sistemin inkişafına öz töhfəsini verdiklərini qeyd edib.

Prezident İlham Əliyevin "indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq olmadan həyata keçirilə bilməz. Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır" fikirlərinin real nəticələr verdiyinə diqqət çəkən Ədalət Vəliyev bu prosesdə Gələcək Azərbaycan Partiyasının fəal iştirak edəcəyinə əminliyini bildirib.

Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu öz növbəsində ölkəmizdə aparılan siyasi dialoqu və dialoq çərçivəsində görülmüş işləri yüksək qiymətləndirib, ölkəmizin rifahını və dövlətimizin güclənməsini istəməyən azsaylı radikal şəxslərin arzuolunmaz fəaliyyətindən bəhs edib. Uğurlu xarici siyasət nəticəsində Azərbaycanın dünyanın ən fərqli geosiyasi qütbləri ilə münasibətlərini qoruduğu, beynəlxalq güc mərkəzlərindən gələn təzyiqləri neytrallaşdırdığı və bütün bunların nəticəsində sabitliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevrildiyi qeyd olunub. Bildirilib ki, bu gün ölkəmizdə siyasi baxışlarından asılı olmayaraq, dövlətimizin güclənməsini, xalqımızın sosial rifahının daha da yaxşılaşmasını istəyən hər bir vətənpərvər şəxs Azərbaycanın uğurlarına sevinməli, bu uğurların davamlı olması üçün özü də əlindən gələni əsirgəməməlidir. Bu işdə Gələcək Azərbaycan Partiyası da öz köməyini göstərməyə daim hazırdır.

Sonda tərəflər konstruktiv əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq, bu işi sistemli şəkildə davam etdirmək barədə fikir mübadiləsi aparıblar. Mayın 22-də Brüsseldə Azərbaycan və Ermənistan rəhbərləri arasında keçirilmiş görüş yüksək qiymətləndirilib, iki ölkə arasında sərhədin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılmasını regionda sülhün və təhlükəsizliyin təmin olunmasında vacib rol oynayacağı bildirilib.




# "Azərbaycan xalçası-ilmələrin rəqsi"

## Heydər Əliyev Fondunun dəstəyi ilə təqdim olunacaq

Heydər Əliyev Fondunun dəstəyi ilə milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunub saxlanılması, inkişafı və tanıdılmasına yönələn daha bir layihə həyata keçirilib. İcrasına 2016-cı ildən başlanılan layihə çərçivəsində hazırlanan "Azərbaycan xalçası-ilmələrin rəqsi" adlı yeni xalça kolleksiyası və eyniadlı kitab iyunun 3-də Heydər Əliyev Mərkəzində təqdim ediləcək.

Azərbaycanda xalçaçılıq sənəti əsrlər boyu xalqın məişət və mədəniyyətinin ayrılmaz hissəsi olub və bu günümüzə qədər gəlib çatıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırıqları və qayğısı nəticəsində Azərbaycanda xalçaçılıq sənətinin inkişafı sahəsində bir sıra mühüm sənədlər qəbul edilib, müxtəlif layihələr həyata keçirilib.

Heydər Əliyev Fondunun qədim sənətə yeni nəfəs verən kolleksiyasındakı "Yaranış", "Şikargah", "Xan ovu", "Cəng və barış", "Bəndi-rumi", "Şəbəkəli", "Adəm və Həvva, "Ağaclı", "Narlı", "Göllü", "Ləçək-turunc", "Dörd fəsil", "Tağlı", "Cəmadət" xalçaları, "Cənnət quşları" və "Cənnət bağı" dəst xalı-gəbələri bənzərsiz sənət nümunələri kimi ziyarətçilərin marağına səbəb olacaq. Kolleksiyadakı xalçaların hər biri naxışları, ornamentləri vasitəsi ilə ziyarətçiyə öz mesajlarını çatdırır. "Yaranış" əsərində isə xammalın hazırlanmasından xalçanın tam ərsəyə gəlməsinə kimi bütün mərhələlər parlaq bədii dillə öz əksini tapıb.

Yeni kolleksiyanın yaradılmasında Azərbaycanın Xalq rəssamı Eldar Mikayılzadə başda olmaqla 6 rəssam və 14 toxucu iştirak edib. Təbii boyalarla rənglənən xalçalar ipək və yundan toxunub. Burada 170 rəng və çalarlardan istifadə olunub. Müxtəlif rəng çalarlarının əldə olunması üçün toxucular saç kimi nazik ipək ipləri açaraq bir neçə rəngdən yeni bir ip yaradıblar. Xalçaların ərsəyə gəlməsində ecazkar Şəki Xan Sarayı, Şəkixanovların evi, şəbəkələr, təbiətdən gələn naxışlar, zəngin flora və faunamız, təkəlduz tikmələri, zərif zərgərlik məmulatları tükənməz ilham mənbəyi olub, ilmə-ilmə xalçalarda əbədiləşərək öz əksini tapıb.

"Azərbaycan xalçası-ilmələrin rəqsi" kolleksiyasına daxil olan əsərlər barədə ətraflı məlumat isə eyniadlı kitabda yer alıb. Nəşrdə oxuculara Azərbaycanda xalça sənətinin tarixi, qədim sənətin yaşadılması üzrə dövlət tərəfindən görülən tədbirlər, yeni kolleksiyanın ərsəyə gəlməsi prosesi barədə materiallar təqdim edilir.

*Nurlan QƏLƏNDƏRLİ*

# Böyük Qayıdış

## Qururuq, yaradırıq və yaşadacağıq!

44 günlük Vətən müharibəsi Azərbaycanın gücünü - qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bir daha bəlli oldu ki, güclü iqtisadiyyata, hərbi potensiala, siyasi-diplomatik imkanlara, müsbət beynəlxalq imicə malik olan Azərbaycan istənilən strateji hədəfi vaxtında və dəqiq yerinə yetirmək əzmindədir. Postmüharibə dövrü də bu gerçəkliyi ifadə edir - Azərbaycan yeni mərhələdə qarşıda duran milli məqsədləri reallaşdırmaq iqtidarındadır. Xüsusilə də, Böyük Qayıdış planını.

**Zəfər yürüşü davam edir**

İftixar hissi ilə qeyd edirik ki, bu gün tarixi Qələbə ovqatında Zəfər yürüşü davam edir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərləri bu yürüşün davamı - qələbə təntənəsidir. Əziz Şuşanın, doğma Qarabağın Xilaskarı İlham Əliyevin lider dövlətin Lideri, Müzəffər Ali Baş Komandan kimi işğaldan azad olunmuş torpaqlarımıza atdığı hər addım tarixin yaddaşına əbədi həkk olunur. Həmin ərazilərdə kənd və şəhərlərimizin, mədəni irsimizin bərpa olunması, yeni reallıqlar əsasında ölkəmizin və regionumuzun gələcəyinin inşa edilməsi ictimai, siyasi, iqtisadi, mədəni, humanitar və strateji əhəmiyyətə malikdir. Bütövlükdə, bu səfərlər, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması müzəffər xalq kimi qayıtdığımızı, qurucu xalq kimi yaradacağımızı nümayiş etdirir. Bir sözlə, Böyük Qayıdış başlayıb - biz qururuq, yaradırıq və yaşadacağıq!

**Layiqli və dayanıqlı məskunlaşmanın təmin edilməsi üçün**

İşlər uğurla - ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir. Həmin ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, yeni infrastrukturların yaradılması, sərmayələrin cəlb edilməsi və digər mühüm amillər Böyük Qayıdışın - layiqli və dayanıqlı məskunlaşmanın vaxtında, yüksək səviyyədə təmin olunması üçün çox əhəmiyyətlidir. Yol infrastrukturunun yaradılması - avtomobil və dəmir yollarının çəkilməsi, yeni hava limanlarının tikilməsi, bütün şəhərlərin baş planlarının hazırlanması və digər addımlar görülən işlərin sistemli xarakter daşıdığını göstərir. "Ağıllı şəhər", "ağıllı kənd" layihələrinin həyata keçirilməsi regional inkişafın yeni nümunəsinin yaradılmasıdır. Sakinlər üçün rahat həyat şəraitinin və əlçatanlığın təmin olunmasına xidmət edən bu layihələr həm də vətəndaş məmnunluğunun artırılması baxımından çox önəmlidir. Bu, həm də qabaqcıl təcrübənin tətbiqi deməkdir. Dünyada bu layihələrə daxil olan komponentlərə ağıllı infrastruktur və xidmətlər, ağıllı təsərrüfat və biznes, həmçinin ağıllı idarəçilik sistemi aiddir. Ağıllı idarəçilik sistemində əsas məqsəd vətəndaşın vaxtına qənaət, həmçinin hansısa süni əngəllərin meydana çıxmasının qarşısının alınması və əlçatanlığın tam təmin olunmasıdır. Bununla yanaşı, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tərkib hissələrindən biri "yaşıl zona"nın yaradılmasıdır. Burada alternativ enerji mənbələrindən geniş istifadə olunması nəzərdə tutulur. Təbii ki, işğal edilmiş ərazilərimizin azad olunmasından sonra həmin ərazilərdə günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün yeni imkanlar yaranıb. Azad edilmiş bütün torpaqlarda su, günəş, külək enerjilərindən istifadə edilməsi Azərbaycana yeni iqtisadi imkanlar qazandıracaq.

Nəticə etibarilə, Azərbaycan strateji hədəflərini ardıcıl olaraq reallaşdırır. Böyük Qayıdış yolunda əmin addımlar atırıq. Bu isə tarixi Qələbənin prosesə çevrilməsi, milli həmrəyliyin güclənməsi, o cümlədən siyasi güc və sosial-iqtisadi inkişaf deməkdir.

## Prezident bu gün

**Prezident İlham Əliyev (2004-2021-ci illər)**
26 may

18 qəbul keçirib;
12 Fərman;
20 Sərəncam imzalayıb.
3 açılış;
1 təməlqoyma mərasimində iştirak edib.
1 regiona səfər edib.
məzun günündə iştirak edib.

## Rəsmi sənədlər

Azərbaycan Prezidentinə 28 may Respublika Günü münasibəti ilə Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabet, İspaniyanın Kralı VI Felipe, "VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri Andrey Kostin, Malayziyanın Kralı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billah, Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri Mahmud Abbas, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbun, Koreya Respublikasının Prezidenti Yun Sok Yol, Sudan Respublikasının Suveren Keçid Şurasının sədri Abdel Fattah Abdelrahman Al-Burhan, MDB İcraiyyə Komitəsinin sədri – icraçı katibi Sergey Lebedev təbrik məktubları ünvanlayıblar.

***

Azərbaycan Prezidenti "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncamı;

***

"Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Şərtləri və Qaydası"nın təsdiq edilməsi haqqında Fərmanı;

***

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Latviya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərmanı imzalayıb.

***

Gürcüstanın Prezidenti Zati-aliləri xanım Salome Zurabişviliyə Gürcüstanın milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: "Azərbaycan-Gürcüstan əlaqələri çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək kimi möhkəm təməllər üzərində qurulub. Bu il isə ikitərəfli əlaqələrimizin tarixində xüsusilə əlamətdardır - biz Azərbaycan Respublikası ilə Gürcüstan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəyik. Bu müddət ərzində qarşılıqlı etimada əsaslanan əməkdaşlığımızın genişlənməsi və strateji tərəfdaşlığımızın möhkəmlənməsi bizi sevindirir.

Əminəm ki, xalqlarımızın iradəsini əks etdirən dövlətlərarası münasibətlərimiz, müxtəlif sahələri əhatə edən səmərəli əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da uğurla davam edərək ölkələrimizin rifahına, regionda əmin-amanlığa və sabitliyə töhfə verəcəkdir".

# Tarixin mühüm anında

## Yaxşı ki, Heydər Əliyev vardı... Yaxşı ki, İlham Əliyev var!

**Baş redaktor yazır...**

*Alqış HƏSƏNOĞLU*

28 may - Müstəqillik Günü münasibətilə ABŞ Prezidentinin İlham Əliyevə göndərdiyi təbrik mətnindəki bir ifadə xüsusi diqqət tələb edir.

**"Tarixin mühüm anında..."**

Nəzərə alaq ki, məktubun özü də 21-ci yüz ilin çox keşməkeşli dönəmində, yaşadığımız dövrün çox mühüm bir anında yazılıb.

Hazırda təbrik məktubunun məzmununa dair müxtəlif şərhlər verilir, geosiyasi, strateji tərcümələr edilir.

Bütün bu dəyərləndirmələrin fövqündə isə bir gerçəklik dayanır.

**1-ci...**

Cozef Baydenin təbiriylə desək, indi "Cənubi Qafqazın uzunmüddətli sülh quruculuğu prosesində" Azərbaycanın və İlham Əliyevin liderliyinə fövqəladə ehtiyac var.

Və o ehtiyacı qarşılamadan regionda yaranmış "vacib imkanlar"dan ardıcıl sülh və əməkdaşlıq naminə yararlanmaq mümkün olmaya, "ümid zamanı" qaçırıla bilər.

Müstəqil Azərbaycanın son 30 ildə şahidlik etdiyi tarixin bütün mühüm anlarında olduğu kimi...

İlham Əliyev bu gün təkcə ölkəsinin deyil, bölgəsinin və zamanının ən legitim lideridir.

Siyasət mümkün olanları - əl çatan, yaxın məsələləri müzakirə etməyi tələb edir.

Siyasətçinin əsas işi yaxın vəzifələri saf-çürük etmək, onların təsnifatını aparmaq, həllini gözləyən problemləri sıralamaqdır: 1-ci , 2-ci, 3-cü, 4-cü və sair.

Konkret məsul şəxsin, ölkə rəhbərinin, prezidentin, liderin - 1-ci şəxsin vəzifəsi 1 nömrəli problemi çözməkdən ibarətdir.

Təbii ki, bu incəlikləri nəzərə almaq, bir-birindən fərqləndirmək hər kəsə müyəssər olmur.

Və bu səbəbdən də hər dövlət rəhbəri Heydər Əliyev, hər prezident Müzəffər Ali Baş Komandan ola bilmir.

Bir qədər keçmişə qayıdaq.

Sovetlərin çöküşündən sonra - tarixin mühüm anında Azərbaycan rəhbərliyinin qarşısında bir nömrəli həlli vacib vəzifə dayanmışdı: elan edilmiş dövlət müstəqilliyinin dönməzliyinə təminat vermək.

Həmin ərəfədə bundan mühüm bir vəzifə yox idi.

Azərbaycan Respublikasının 1-ci prezidenti Ayaz Mütəllibovun bu missiyanı yerinə yetirmək imkanları məhdud idi.

Üzləşdiyi faciəvi durumu eksprezidentin özü müsahibələrinin birində belə qiymətləndirmişdi: "Allah heç kəsi mənim günümə salmasın".

Əlbəttə ki, ölkənin ikinci prezidenti Əbülfəz Elçibəy Mütəllibovdan fərqli biriydi.

Mən onu ilk dəfə xaotik çıxışları ilə tanıdım.

1989-cu ilin payızıydı.

Onun Azadlıq meydanında keçirilən mitinqdə ölkənin xarici siyasəti ilə bağlı dediklərini olduğu kimi xatırlayıram: "70 il özgələr bizi yeyib dağıtdılar. İndi nə olar, bir az da özümüzünkülər gəlsin, nə istəyirlər eləsinlər..."

Normativ təfəkkürün xırdaca nişanəsi olmayan qarmaqarışıq bir nitq.

Əbülfəz Elçibəyi ikinci dəfə Bakı Dövlət Universitetinin akt zalında tələbələrlə görüşdə yaxından müşahidə edə bildim.

Həmin tədbirdə tələbələrdən birinin AXC liderinə verdiyi "Hakimiyyətə gəlsəniz, Qarabağ problemini necə həll edəcəksiniz?" sualına Əbülfəz bəy düşünmədən, həm də çox arxayınlıqla cavab verdi: "Çox asan, sərhədləri kəsəcəyik, erməni çapalaya-çapalaya məhv olacaq".

Və o da dəqiq yadımdadır ki, bir sırada əyləşdiyimiz böyük türkoloq alim Tofiq Hacıyev özünü saxlaya bilməyib "adamın dünyadan xəbəri yoxmuş" deyə söylənmişdi.

Doğrusu, mən o zaman Tofiq müəllimin belə deməyinə bir qədər təəccüblənmişdim.

"Necə yəni, AXC lideri, prezidentliyə namizəd ... dünyadan xəbəri olmaya bilər?"

Təəssüf ki, Əbülfəz Elçibəy prezident olduğu müddətdə də xaotik düşüncələrinin təsiri altında idi.

Ölkənin birinci şəxsi kimi onun qarşısında dayanan 1 nömrəli vəzifənin nədən ibarət olduğunu müəyyən etməkdə çətinlik çəkirdi.

Və elə hakimiyyətinin sonuna kimi "tarixin mühüm anı"nı heç çür dəyərləndirə bilmədi.



Çünki AXC liderinin dövlət idarəçiliyi haqqında təsəvvürləri ziddiyyətli və minimum həddindəydi.

Təcrübəsiz prezident və onun ətrafındakı təcrübəsiz idarəetmə aparatı vəziyyəti daha acınacaqlı duruma gətirmişdi.

Həmişə istinad ediləcək bir hadisəni təkrar yada salmaq istərdim.

1993-cü ilin fevralında Bakıya qardaşı Həsən Əliyevin yas mərasimində iştirak etmək üçün gələn Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev prezident Əbülfəz Elçibəylə söhbət edərkən idarəetmədə, dövlət siyasətində ciddi qüsurların olduğunu qeyd edir. Əbülfəz Elçibəy isə "biz hakimiyyətə yenicə gəlmişik, hələ öyrənirik, təcrübə toplayırıq" deyir. Onda Heydər Əliyev Xalq Cəbhəsinin liderinə bütün dövrlər və bütün siyasətçilər üçün dərslik sayıla biləcək bir məsləhət verir: "Öyrənmək yaxşıdır. Təcrübə toplamaqda davam edin. Amma yadınızda birdəfəlik saxlayın. Xalq heç bir halda təcrübə materialı kimi istifadə oluna bilməz".

Təəssüf ki, 1991-1993-cü illər ərzində Azərbaycan məhz elə təcrübə materialına çevrilmişdi. Kim necə, nə vaxt bacarırdı sınaqdan keçirirdi.

Uğursuz təcrübələrə yalnız 1993-cü il iyunun 15-də Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə son qoyuldu.

Vurğulamaq yerinə düşər ki, müasir Azərbaycan Respublikası üç sütunun üzərində bərqərardır:

15 iyun 1993-cü il, 20 sentyabr 1994-cü il və 2003-cü ilin prezident seçkisi.

Heydər Əliyevin qurtuluşçuluq missiyası bir günlə, bir illə yekunlaşmadı, bir neçə ili əhatə etdi.

Heydər Əliyev 1918-1920-ci illərdə nakam və yarımçıq qalmış bir prosesi tamamladı. O, 73 il sonra yenidən Azərbaycan adlı coğrafiyaya qayıtmış siyasi məzmunu dövlətçilik məzmunu ilə zənginləşdirib müstəqilliyimizin dönməzliyini təmin etdi.

Dahi Öndərimiz 2003-cü ildə Azərbaycan xalqına ünvanladığı siyasi vəsiyyətnamədə deyirdi: "İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq. İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq. Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik".

"1993-cü ildə xalqın tələbi ilə Əbülfəz Elçibəy Heydər Əliyevi hakimiyyətə dəvət etdi" deyimi ciddi redaktə olunmalıdır. Heydər Əliyevi hansı hakimiyyətə dəvət etmişdilər?

1993-cü ilin iyun günlərində Azərbaycanda dövlət, hakimiyyət adına heç bir əlamət mövcud deyildi.

Azərbaycan dövləti çilik-çilik, cəmiyyət parça-tikə olmuşdu.

Heydər Əliyev belə bir şəraitdə, yoxdan, quru yerdə müasir Azərbaycan dövlətinin əsaslarını yaratdı-Azərbaycan xalqı, tarixi qarşısında dayanan bir nömrəli vəzifəni yerinə yetirdi...

Missiya davam edir.

Heydər Əliyevin başlatdığı qurtuluşçuluq missiyasını davam etdirmək İlham Əliyev üçün heç də asan olmadı.

Zaman-zaman haqsızlıqlarla üzləşdi.

Onu haqlı, prinsipial mövqeyindən çəkindirmək üçün erməni lobbisinin təsiri ilə fəaliyyət göstərən dairələr boş dayanmırdılar. Hücumlar səngimirdi.

Bir neçə il əvvəl bu barədə yazmışdım: hədəf eynidir - Cənubi Qafqazın neft və lider ölkəsindəki sabitlik və həmin sabitliyi təmin etməyi bacarmış lider.

Ardıcıl ideoloji-siyasi basqılar həyata keçirilir.

Rəngli və parıltılı adlarla: insan haqları, fundamental azadlıqlar, seçki saxtakarlığı və s.

Bir qayda olaraq, hər seçki prosesindən sonra ATƏT-in verdiyi bəyanat müşahidəçi qənaətindən daha çox ideoloji-siyasi diversiyaya oxşayır: "Hökumət xalqın dinc yolla hakimiyyəti dəyişdirmək şansını əlindən alır".

Özü də xalqın adından danışılır. Bu səlahiyyəti kim verib?

Dinc yolun alternativi nədir?

Şərh verməyə nə lüzum.

Xaos, yeni ərazi itkiləri, zəifləmiş hakimiyyət və Qarabağın deyure təhvil-təslimi. Bu, erməni adıyla kodlaşdırılmış düşmənin perspektiv və strateji istəyidir.

Əhali ilə dövlət təsisatları arasında inamsızlıq səddi hörülür...

Rüşvət və korrupsiya ittihamları büdcə oğurluğuna etiraz nidası kimi səslənə bilər. Ancaq ilk baxışda...

Mövzu büdcəmizə uzanan əyri əlləri kəsmək üçün tirajlanmır.

Bu, dövlətə qarşı ikrah aşılamağın ən təsirli vasitələrindən biridir.

Yəni sənə məxsus pul, bir müharicin ləhcəsiylə desək, "çəmədanlarda" xaricə daşınır...

Ölkəni lidersizləşdirmək üçün cəhdlər dayanmır.

Azərbaycan kimi mürəkkəb vəziyyətdə olan bir ölkəyə sıradan bir prezident yox, bütün davranışlarıyla ölkəsini və xalqını təmsil edə və yönləndirə bilən lider-dövlət başçısı gərəkir.

Avropadan başladılmış və davam edən söyüş, təhqir kampaniyası ölkənin ictimai-siyasi inanclarını sıradan çıxarmağa hesablanıb.

Heydər Əliyev Azərbaycanın dövlətçilik və siyasi inancıdır.

Siyasi inancından məhrum olunmuş xalqın milli dövləti olmaz, dövlətçiliyi rəqabət imkanlarını yerlidibli itirər.

Bir neçə il əvvəl Böyük Britaniya kral ailəsinin yeni üzvü - Şahzadə Vilyamın oğlan övladı dünyaya gəlmişdi. Müttəfiq dövlətlər Kraliçanı və ölkənin baş nazirini təbrik edirdilər. Təbrik mətnlərində yeni doğulan körpə regionda sabitliyin və rifahın rəhni kimi dəyərləndirilirdi.

Körpə gələcəkdə hansı fiziki və əqli göstəricilərə sahib olacaq, hələ bilinmir. Krallıq növbəsi ona yetişəcəkmi? Demək çətindir. Kimsəni ilgiləndirməz. Bu, bir dövlətçilik ənənəsidir. Kimsənin "bu ki adi uşaq əyləncəsidir" deməyə haqqı çatmaz. Və hər kəsdən bu ənənəyə sayğı tələb olunur...



Heydər Əlirza oğlunun soyadı Azərbaycanın siyasi etiketidir.

Heydər Əliyev - milli dəyərdir...

Milli maraqlar hər növ idarəçilik normasının, istənilən konstitusiyanın və digər ali qanunların fövqündə dayanır.

Əliyev soyadı prezidenti aşkar və gizli hücumlara məruz qoyur.

Bəli, İlham Əliyevi sevməyənlər var...

Neçə nəfərdirlər: bir, iki, üç, on, yüz, min?

Say üzərində baş sındırmağa ehtiyac - filan yox.

Çünki...

Azərbaycan Prezidenti və onun simasındakı Azərbaycana bəslənilən antipatiyanı (dəxli yoxdur, daxili, ya da xarici) doğuran səbəblər antimilli və anti-əliyevçi statistikanı heçə endirir.

O səbəblər ki, Azərbaycanın və onun liderinin tənqidçilərinə səxavətlə qucaq açan tribunanı (və ya tribunaları) Azərbaycan Prezidentinin liderliyini, alternativsizliyini və legitimliyini təbliğ, həm də təlqin edən xitabət kürsüsünə çevirir.

Səbəblər hansılardır...

**Birinci:**

Azərbaycan Prezidenti diktəyə qarşı barışmazdır.

O, hər addımda müstəqil ölkənin müstəqil Prezidenti olduğunu nümayiş və sübut edir...

İlham Əliyevlə təzyiqlə danışmağın faydası yoxdur və nəticəsi olmaz.

**İkinci:**

Azərbaycanın siyasi səhnəsi İlham Əliyevin şəriksiz nüfuzu və təsiri altındadır.

İlham Əliyev faktoru ictimai-siyasi fəaliyyət sahəsini, sanki, əlçatmaz və keçilməz zolağa çevirib.

Prezidentin özündən asılı olmayaraq.

**Üçüncü:**

İlham Əliyev yerli və əcnəbi həvəskarlara Azərbaycan xalqından təcrübə materialı kimi istifadə etmək şansı vermir.

**Dördüncü:**

Ölkə və onun ərazisi qonşulara qarşı heç bir prosesdə iştirak etmir. Birmənalı şəkildə.

"Nazik sap üzərində yürüdülən xətt" (ifadə Heydər Əliyevə məxsusdur) kimi səciyyələndirilən xarici siyasət kursumuza İlham Əliyev praktik məzmun gətirib: "Azərbaycan qarşıdurma yox, əməkdaşlıq məkanıdır!"

**Beşinci:**

Soyuqqanlı məntiq və kompromissiz mövqe.

Müstəqillik - qarşılıqlı asılılıq deməkdir...

Söhbət ölkənin müstəqilliyindən və ərazi bütövlüyündən gedirsə, Prezidentin qətiyyəti hətta siyasi konyukturdan kənara çıxır.

O, Azərbaycanın müstəqilliyini yalnız "qarşılıqlı asılılıq" əsasında "güzəşt"ə gedə bilər...

21-ci əsrin qlobal qayğıları məhz bu modeli tələb edir: milli müstəqil dövlətçilik yalnız qarşılıqlı faydalı asılılıq (əməkdaşlıq) mühitində yaşaya və inkişaf edə bilər....

Prezidentə və onun ölkəsinə yönəlmiş hücumun səbəbləri Azərbaycanın uğur modelini təmin edən şərtlərdən zərrə qədər fərqlənmir...

İlham Əliyev bu gün 1 nömrəli vəzifənin öhdəsindən gəlməyi bacardı.

Özünün dediyi kimi, ləyaqətli mübarizənin nəticəsində.

Respublikanın ərazi bütövlüyü təmin edilib...

Hazırda Azərbaycan Prezidenti iki 1 nömrəli missiyanın icrasıyla məşğuldur.

Qələbəni regional hərəkata çevirmək və dövlətini, xalqını az itki və maksimum nəticəylə növbəti mərhələyə daşımaq.

Proses uğurla idarə olunur.

Tarixdən kənarda qalmaq istəməyənlər bu prosesə qoşulmaq üçün qeyd-şərtsiz tələsməlidirlər.

Elə məktubun təlqin etdiyi bir çağırış da məhz bu yöndədir.

**Təbrik məktubundakı 2-ci mühüm məqam Qərbin, Amerikanın postsovet məkanına yanaşmasıyla bağlıdır.**

Amerika Cənubi Qafqaza, o cümlədən digər regionlarda postsovet respublikalarına qarşı sərgilədiyi ənənəvi siyasətin yanlış olduğunun fərqindədir.

Söhbət hansı yanlışlardan gedir?

Adətən postsovet məkanı Amerikanın, Qərbin siyasi-iqtisadi-hərbi maraqlarını təmin edən əlverişli platsdarm kimi dəyərləndirilir. Milli dövlətçilik institutlarının taleyi isə ABŞ-ı və Qərbi narahat etməz...

Qərbin "öz adamı" hesab etdiyi şəxslərlə rəftarı da ziddiyyətlidir. Ortada Saakaşvili nümunəsi var. Bir müddət cəlayi-vətən olan sabiq prezident hazırda həbsdədir. Demokratikləşdirdiyi, rüşvətin kökünü kəsdiyi ölkəsində yaşamaq ona yasaq edilib. Aqibəti nə olacaq? Demək çətindir...

ABŞ bu yanaşmaya yenidən baxmağın vacibliyini dərk etməkdədir.

Necə deyərlər, ziyanın - ukraynanın yarısından qayıtmaq da savabdır.

**Nəhayət, Baydenin təbrik mətnindən hasil olunan üçüncü qənaət...**

Belə anlaşılır ki, ABŞ artıq sözdən əmələ keçmək qərarını verib.

İlham Əliyevin "indi Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə, sabitliyə sadiqlik nümayiş etdirməyin zamanıdır" çağırışına okeanın o tayından gələn məktubda xüsusi diqqət göstərilir: "İndi Cənubi Qafqazda uzunmüddətli sülhə ümid etmək üçün vacib imkanlar yaranıb".

İlham Əliyevin liderliyində ehtiva olunan **üç qızıl norma** növbəti sınaqdan da uğurla keçir:

- Sən lidersənsə, sənə güvənməlidirlər;
- Sən lidersənsə, səninlə hesablaşmalıdırlar;
- Sən lidersənsə, özünü vəziyyətdən asılı duruma salmamalısan.

Bu qaydalar bir-birini tamamlayan, bir-birinin davamına çevrilən əvəzolunmaz prinsiplərdir.

Bu gün İlham Əliyevə güvənirlər, onunla hesablaşırlar, çünki o, özünü və ölkəsini situasiyadan asılı hala salmır.

Azərbaycan Prezidenti tarixin mühüm anında situasiyanı yaradır və istiqamətləndirir...

Ötən günləri xatırlayanda deyirik: nə yaxşı ki, Heydər Əliyev vardı.

Bu gün eyni əhənglə deyə bilirik: nə yaxşı ki, İlham Əliyev var.

**Bu gün siyasətçilərin, siyasətşünasların diqqət yetirdikləri və müzakirə etdikləri problemlərdən biri milli təhlükəsizlik məsələləridir. Bu, əslində, bir ölkənin və ya regionun problemi deyil. Hər bir dövlətin strateji kursunun - daxili və xarici siyasətinin hədəfləri sırasında milli təhlükəsizliyin təmin olunması müstəsna yer tutur.**

**XXI əsrin üçüncü onilliyində dünyanın mənzərəsi olduqca ziddiyyətlidir. İqtisadi tənəzzül, siyasi qeyri-sabitlik, ictimai münasibətlərdə xaos, ideoloji boşluq, xarici müdaxilələr və digər mənfi hallar müxtəlif ölkələrin real mənzərəsini təşkil edir. Səbəblər müxtəlifdir. Siyasi hakimiyyətin nüfuzunun olmaması, səmərəli idarəetmə sisteminin yaradılmaması, xarici siyasətdə çoxsaylı qüsurlar və s. Ona görə də “rəngli ssenari”lər, xaos planları, iğtişaşlar, inqilablar, çevrilişlər, üsyanlar bir sıra ölkələr və regionlar üçün siyasi ənənəyə, “milli” adətə çevrilib, yaxud xroniki geosiyasi xəstəlik halını alıb.**

# Azərbaycanın sabitlik və təhlükəsizlik modeli

## Özümüzə güvənirik, öz gücümüzlə təmin edirik!

*Nurlan QƏLƏNDƏRLİ*

Çox uzağa getməyək. Regionumuzda da iqtisadi tənəzzül, siyasi qeyri-sabitlik, ictimai münasibətlərdə ziddiyyətlər və digər problemlər ölkələri öz ağuşuna alıb. Cənubi Qafqazın 3 ölkəsindən ikisi - Gürcüstan və Ermənistanda zaman-zaman (və tez-tez) siyasi və hakimiyyət böhranı, iqtisadi problemlər, xarici siyasətdə krizis halları müşahidə edilir. Azərbaycanın digər bir sıra qonşuları da milli təhlükəsizliyə təhdid yaradan hallardan (iqtisadi geriləmə, ictimai münasibətlərdə etimadsızlıq, beynəlxalq müstəvidə problemlər və s.) əziyyət çəkirlər. Bu, əslində, daxili və xarici siyasətin düzgün prinsiplər, hədəflər əsasında qurulmamasından qaynaqlanır.

Azərbaycan nümunəsi isə müsbət təcrübəni, mütərəqqi modeli ifadə və ehtiva edir. İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan xaos və anarxiya meydanına, geosiyasi mübarizə poliqonuna, “demokratiya laboratoriyası”na, dini, etnik müstəvidə qarşıdurma sahəsinə çevrilən region ölkələrindən fərqli olaraq öz milli qüdrətini artırıb. İstər siyasi ekspertlərin şərhlərində, istər müxtəlif araşdırma mərkəzlərinin strateji tədqiqatlarında, istərsə də reytinq institutlarının hesabatlarında diqqət yetirilən ümumi məqam var: Azərbaycanın sabitlik adası - təhlükəsizlik məkanıdır.

Ölkəmizdə bərqərar olmuş təhlükəsizlikdən bəhs edərkən bir sıra “ekspert”lər, “siyasətçilər”, hətta bəzi ölkələrin rəsmiləri qərəzli yanaşmalara və subyektiv mülahizələrə yol verirlər. Amma əslində, yaxşı bilirlər ki, Azərbaycanın öz təhlükəsizlik modeli var. Ölkəmiz heç bir dövlətdən, regional və beynəlxalq güc mərkəzindən, hansısa təşkilat və qurumdan asılı deyil, öz təhlükəsizliyini təmin edir, yaxın və ya uzaq ölkələrin təsirinə məruz qalmır: Liderin uğurlu daxili və xarici siyasəti hesabına. O Lider ki, adı inkişaf və sabitlik anlayışları ilə assosiasiya olunur, islahatçı və yenilikçi yanaşması ilə fərqlənir, mükəmməl geosiyasət bilicisidir, milli həmrəyliyin qarantıdır. Ən əsası, İlham Əliyevin güclü dövlət konsepsiyası konyuktur maraqları ehtiva etmir, hakimiyyətin mühafizəsinə deyil, dövlətçiliyin qorunmasına hədəflənib.

Təhlükəsizlik məsələsində ölkələr üç qrupda təsnif edilir:

- öz təhlükəsizliklərini təmin edənlər;
- sabitlik mühiti bağlı olduğu geosiyasi mərkəzlərdən asılı olanlar;
- qeyri-sabitlikdən, xaosdan mütəmadi olaraq əziyyət çəkənlər.

Bəzi qonşu ölkələrdən və region dövlətlərindən fərqli olaraq Azərbaycan birinci qrupda yer alanlar sırasındadır. Bəs ölkəmizin təhlükəsizlik modelinin əsasında nə dayanır?

Bir əsas səbəb və bir neçə xüsusi amil var. Əsas səbəb, qeyd etdiyimiz kimi, uğurlu strateji kursun həyata keçirilməsidir. Xüsusi amillər isə çoxdur.

Daxili siyasət faktorlarından bəhs etsək, qeyd edə bilərik ki:

- Əvvəla, Azərbaycan siyasi təkamül yolu tutub. Siyasi təkamülə nail olmaq üçün yenilənən islahat kursu ilə yeniləşmək, ictimai münasibətlərdə keyfiyyət dəyişikliklərinə nail olmaq, idarəetmə standartlarını yüksəltmək və digər innovativ metodlardan istifadə etmək lazımdır. Azərbaycanın güclü dövlət mexanizminin əsasını təşkil edən mühüm amillərdən biri davamlı islahatların həyata keçirilməsi, dövlət idarəçiliyində yeni və təkmil standartların tətbiq olunmasıdır. Prezident İlham Əliyevin siyasi iradəsi əsasında və rəhbərliyi altında görülən işlər nəticəsində ölkənin idarəetmə sistemi təkmilləşdirilir, yeni kadr siyasəti idarəetmədə bir sıra neqativ halların aradan qalxmasını təmin etməklə yanaşı, hakimiyyət komandasının monolitliyini daha da gücləndirib. İdarəetmə orqanlarında, qanunvericilik sahəsində, parlamentdə, ümumiyyətlə, dövlət həyatının bütün sahələrində həyata keçirilən islahatların cəmiyyət tərəfindən təqdirlə qarşılanması İlham Əliyevin güclü dövlət konsepsiyasının uğurla reallaşdırılmasından xəbər verir. Bu, həm də ictimai etimada əsaslanan yeni münasibətlərin təşəkkülüdür. Elə sabitlik, təhlükəsizlik amilidir;

- İlham Əliyev “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”, - deyə bildirir. Vətəndaş fərdi, cəmiyyət isə ictimai anlam daşıyır. Dolayısıyla, siyasətin mərkəzində dayanan vətəndaşın rifahının yüksəldilməsi, mənafeyinin təmin olunması mühüm ictimai-siyasi əhəmiyyət daşıyır. Dövlət başçısı güclü dövlət konsepsiyasının tərkib hissəsi olan bu siyasətin reallaşdırılmasında ictimai amillərə xüsusi önəm verir. Yəni vətəndaş fəallığının, təşəbbüskarlığının və iştirakçılığının təmin olunması. Bu, bürokratiyanı və stereotipləri istisna edir, dövlət-vətəndaş ahəngdarlığını yaradır, dövlətçiliyin ictimai dayaqlarını möhkəmləndirir. Beləliklə, insanların rifahının yüksəldilməsi, vətəndaşla dövlət arasında qarşılıqlı inam və etimada əsaslanan münasibətlərin qurulması Azərbaycanın sabitlik adası kimi inkişafına təkan verir, ölkədə təhlükəsizlik mühiti möhkəmlənir;

- Üçüncüsü, ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Dünyada multikulturalizm mərkəzlərindən olan və tolerantlıq nümunəsi kimi çıxış edən Azərbaycan bu zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir, bu yolun qarşılıqlı əməkdaşlığa, inteqrasiyaya, sülh və təhlükəsizliyə xidmət etdiyini göstərir. Bir sözlə, tolerant Azərbaycan yol və nümunə göstərir - islamofoblara, irqçi və mürtəce qüvvələrə. Daha yaxşı dünya - sağlam bəşəriyyət naminə;

- Dördüncüsü, ictimai-siyasi həmrəylik, xüsusilə də xalq-iqtidar birliyi milli təhlükəsizliyin əsaslarını möhkəmləndirir. Prezident İlham Əliyev “Uzun illərdir ki, Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək” ,- deyə qeyd edib. İctimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir. Azərbaycan xalqı həyata keçirilən səmərəli, məqsədyönlü daxili siyasətin və müstəqil xarici siyasət kursunun uğurlu nəticələrini yüksək dəyərləndirir, bu siyasətə alternativ görmür.



İlham Əliyevin milli maraqlara əsaslanan xarici siyasət strategiyası isə milli təhlükəsizliyin fundamenti - möhkəm sütunlarından biridir. Başqa sözlə, Azərbaycan Liderinin uğurlu xarici siyasəti və ya dərin strateji diplomatiya siyasəti Azərbaycanın gücünü artırır, nüfuzunu yüksəldir, təhlükəsizlik mühitini gücləndirir.

Reallıqlar bəllidir:

- Dövlət başçısı prinsipial, ardıcıl, milli maraqlara yönəlik siyasət həyata keçirir, beynəlxalq arenada Azərbaycanın mənafelərini cəsarətlə və qətiyyətlə müdafiə edir, öz qərarlarında xalqın tam və hərtərəfli dəstəyinə arxalanır, onların reallaşdırılması üçün ciddi iradə və əzm nümayiş etdirir. Müstəqil strateji kurs Azərbaycanın öz inkişafını davam etdirməsinə, ölkəmizin milli maraqlarının təmin olunmasına və beynəlxalq mövqeyinin möhkəmlənməsinə xidmət edir. Dövlət başçısı inamla və qətiyyətlə deyir: “Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik”;

- Regionda yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturası məhz Azərbaycanın yaratdığı geosiyasi reallıqlar əsasında formalaşır, proseslər Bakının iradəsinə uyğun tənzimlənir. Bu, İlham Əliyevin strateji oyun qaydalarını 4 qızıl qayda əsasında müəyyənləşdirməsi sayəsində mümkün olur: vaxtı düzgün seçmək, avantüraya getməmək, ölkəni risk altına salmamaq və mümkün dərəcədə maksimum uğura nail olmaq. Prezidentimiz müdrik dövlət xadimi, təcrübəli siyasətçi, qətiyyətli lider kimi yeni mərhələdə də vaxtı düzgün seçir: Azərbaycan nə tələsir, nə gecikir - hər şey vaxtında! Təxribatlara, sabotajlara, prosesləri pozmaq cəhdlərinə, süni müdaxilələrə, ikili standartlara baxmayaraq, İlham Əliyev heç vaxt avantüraya getmir;

- İlham Əliyevin strateji təmkinə, milli maraqlara əsaslanan, müasir geosiyasi çağırışlara adekvat cavab verən strateji kursu nəticəsində Azərbaycan, hətta bir-biri ilə əks mövqelərdə dayanan qütblər - güc mərkəzləri tərəfindən perspektivli tərəfdaş kimi qəbul edilir, Bakının mövqeyinə üstünlük, İlham Əliyevin rəyinə önəm verilir. Bakı Avrasiya geosiyasətində diplomatik trafikin ən vacib və mühüm halqalarından biridir. Təsadüfi deyil ki, İkinci Qarabağ müharibəsi zamanı olduğu kimi, hazırda da həm regionumuzda, həm də Avrasiyada sülh, sabitlik - təhlükəsizlik, əməkdaşlıq və inteqrasiya məsələləri Azərbaycan Prezidenti ilə müzakirə olunur. Üstəlik, Şərqi Avropada III Dünya müharibəsi və “yeni dünya düzəninə keçid” kimi dəyərləndirilən Rusiya-Ukrayna savaşının davam etdiyi vaxtda və şəraitdə geosiyasi diqqət yenə də Cənubi Qafqazın diplomatiya paytaxtı olan Bakıya yönəlib. Bütün bunlar Azərbaycanın regionun geosiyasi gündəliyini formalaşdıran əsas qüvvələrdən biri olduğunu göstərir - Bakının nüfuzunu - prestijini əks etdirir;

- Bu gün Azərbaycan təkcə Cənubi Qafqazın lider ölkəsi - regional güc mərkəzi deyil. Bakı yeni reallıqlar fonunda dialoq və əməkdaşlıq məkanı, inam və etimad ünvanıdır. Ölkəmizdə mötəbər tədbirlərin, görüşlərin keçirilməsi, qlobal siyasi atmosferə təsir imkanlarına malik elita tərəfindən taleyüklü məsələlərin müzakirəyə çıxarılması və digər bu kimi nümunələr iki məqamı ifadə edir: ölkəmizə inam və etimad yüksəkdir; Azərbaycandakı təhlükəsizlik mühiti yüksək dəyərləndirilir;

- Reallıqlar həm də onu təsdiqləyir ki, Azərbaycan ilə tərəfdaşlığın genişləndirilməsi güc mərkəzləri üçün strateji prioritetlərdən biridir. Bakıya regional və beynəlxalq təhlükəsizlik məsələsində inam - etimad mesajları, tərəfdaşlığı gücləndirmək çağırışları (dövlətimizin başçısına göndərilən məktublarda əksini tapan məqamlar xüsusi qeyd edilməlidir) da bu səpkidə xüsusi əhəmiyyət daşıyır.

- Azərbaycan nəinki öz təhlükəsizliyini təmin edir, hətta regional sabitliyə və inkişafa çox mühüm töhfələr verir. Ölkəmizin təşəbbüsü ilə çoxtərəfli regional əməkdaşlıq formatları yaradılır. 44 günlük müharibədə qalib gələn ölkəmiz 100 ilik geostrateji arxitekturanı dəyişdirir;

- Regionda yeni geosiyasi nizamın məhz Azərbaycan-Türkiyə strateji müttəfiqliyi fonunda təşəkkül tapması isə diqqəti cəlb edir. Xüsusi vurğulamaq gərəkdir ki, iki dost, qardaş və tərəfdaş ölkə Şuşa Bəyannaməsini imzalamaqla müttəfiqlik münasibətlərinin strateji xarakterini və ən yüksək səviyyədə olduğunu bir daha təsdiqləyiblər. Bəyannamə regionun yeni geostrateji reallıqlarını təsdiqləyən sənəddir. Qars müqaviləsindən yüz il sonra Şuşa Bəyannaməsinin imzalanması hər iki ölkənin yeni hərbi-siyasi təhlükəsizlik çətiri formalaşdırması - yeni milli və regional təhlükəsizlik mexanizmi yaratmasıdır. Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib, bölgədə yeni təhlükəsizlik amilinə çevrilib. Yeri gəlmişkən, Prezident Rəcəb Tayyib Ərdoğan 28 may - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda qeyd edib ki, “bir millət, iki dövlət” şüarı ilə davam etdirdiyimiz mükəmməl səviyyədəki əlaqələrimizi Şuşa Bəyannaməsinə uyğun olaraq müttəfiqlik iradəsi ilə gücləndirdiyimizə görə məmnunluq hissi keçirirəm. Ortaq səylərimiz, nümunəvi həmrəyliyimiz və sarsılmaz qardaşlığımızın keçmişdə olduğu kimi, gələcəkdə də regionumuzda sülhün, rifahın və sabitliyin ən böyük təminatçısı olmaqda davam edəcəyinə ürəkdən inanırım”.

- Azərbaycanın geosiyasi iradəsi nəticəsində kommunikasiya xətlərinin bərpası, yeni nəqliyyat dəhlizinin yaradılması isə regional təhlükəsizlik faktoru olmaqla yanaşı, mühüm siyasi və iqtisadi dividendlər, perspektivlər vəd edir. Şübhəsiz ki, postkonflikt mərhələsində Zəngəzur dəhlizinin yaradılması Avrasiyada yeni işbirliyi platformasının əsasının qoyulmasıdır. Asiyadan Avropaya doğru uzanan geniş coğrafiyada bir çox dövlət bu geostrateji proyektin reallaşmasında maraqlıdır. Sadəcə olaraq, bu imkanlardan yararlanmaq üçün konstruktiv mövqe, praqmatik davranış ortaya qoymaq lazımdır. İndi ölkəmizin təşəbbüsü ilə yaranan təhlükəsizlik mühiti regional və qlobal güc mərkəzlərinin ortaq maraqlar əsasında səmərəli əməkdaşlığı üçün geniş imkanlar açır.

Şübhəsiz ki, Azərbaycanın yüksəlişi - siyasi üstünlüyünü möhkəmləndirməsi, iqtisadi imkanlarını artırması, beynəlxalq mövqeyini gücləndirməsi və digər amillər müəyyən geosiyasi planlara malik olan mərkəzləri, hətta bəzi region dövlətlərini narahat edir. Sirr deyil ki, bundan öncə “rəngli inqilab” ssenarilərini, xaos planlarını ölkəmizə qarşı tətbiq etmək cəhdləri olub. 2005-ci və 2012-ci illərdə daxili marionetlərdən istifadə etməklə Azərbaycanda hərcmərclik və anarxiya yaratmaq cəhdləri iflasa uğrayıb. Din amilindən istifadə edərək ölkəmizdə həmrəylik, birlik mühitinə zərbə vurmaq niyyəti də fiasko ilə nəticələnib. Və bu günə qədər Azərbaycan sabitlik adası, təhlükəsizlik məkanı və inkişaf diyarı kimi səciyyələndirilir. Xaossevərlər İlham Əliyevin milli birlik siyasətinə, Liderlik fenomeninə, Azərbaycan xalqının qətiyyətinə - iradəsinə məğlub olublar. Dövlət başçısı bu məqamlara toxunaraq deyib: “Hədəf Azərbaycandır, Azərbaycan rəhbərliyidir. Çünki bütün başqa üsullardan istifadə etdilər, alınmadı. İnqilab alınmadı, çevriliş alınmadı, nə bilim, narazılıq yaratmaq alınmadı. Qarabağ məsələsindən istifadə edirdilər, o da alınmadı. İndi biz tarixi Zəfər çaldıq. Ona görə yeni üsullar axtarılır...”.

Bu gün müstəqil, qalib, nüfuzlu, qüdrətli, güclü Azərbaycana qarşı informasiya təxribatları, qara piar kampaniyası aparılsa da, ölkəni xaos meydanına çevirmək mümkün deyil. Azərbaycan 4 sütun üzərində öz sarsılmazlığını təmin edib: İlham Əliyevin siyasəti; xalqın iradəsi; xalq-Lider birliyi və ya milli həmrəylik; tarixi Qələbə - möhtəşəm Zəfər! Nəhayət, Azərbaycanın sabitlik və təhlükəsizlik modeli “Özümüzə güvənirik, öz gücümüzlə təmin edirik” formulu və prinsipi üzərində qurulub. Bunun fərqində olan bəziləri qəbul etmək istəməsələr də... reallıq budur!

# TÜRKPA ilə əlaqələr daha da genişlənir

## Azərbaycan beynəlxalq təşkilatların yaxın tərəfdaşıdır

*Günel ABBAS*

Ölkə başçısının dəfələrlə çıxışlarında bildirdiyi kimi dövlətimizin xarici siyasət kursu bütün ölkələrlə əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyır. Bu, çoxşaxəli və funksional kursun nəticəsidir ki, Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən yaxın tərəfdaş qismində qəbul edilir. Dövlətimiz üzvü olduğu bütün beynəlxalq təşkilatların fəaliyyətində aktiv iştirak edir, təşkilatdaxili münasibətlərin daha da genişlənməsinə, əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfələrini verir. Bu baxımdan, beynəlxalq təşkilat statusuna malik olan TÜRKPA ilə əməkdaşlığı xüsusi qeyd etmək lazımdır.

Türkdilli Ölkələrin Parlament Assambleyasının əsas prinsipi müstəqillik, suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin pozulmazlığı, hüquq bərabərliyidir. Azərbaycanın təşkilatda təmsil olunan parlamentariləri öz ölkələrinin siyasi və ictimai həyatında vacib rol oynayırlar. Onların vahid bir assambleyada birləşməsi dövlətimizin ümumi məqsədlərinin həyata keçirilməsi yollarının axtarılmasına kömək göstərir.

Son vaxtlar digər beynəlxalq təşkilatlarla yanaşı TÜRKPA ilə birgə həyata keçirilən tədbirlərin istiqaməti də bir qədər genişləndirilib. Ötən gün Milli Məclisdə TÜRKPA-nın hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyası çərçivəsində baş tutan konfrans məhz bu əlaqələrin inkişafında olduqca əhəmiyyətlidir. “TÜRKPA-ya üzv dövlətlərdə insan hüquqlarının qorunması” mövzusunda keçirilən konfrans Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili təsisatının 20 illiyinə həsr edilib. Qeyd edək ki, Azərbaycanın Ombudsman təsisatı ilə ali qanunvericilik orqanı olan parlament arasında ötən 20 il ərzində səmərəli əməkdaşlıq əlaqələri qurulub və bu əməkdaşlıq hazırda daha da inkişaf etdirilməkdədir.

Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, TÜRKPA tarix, dil və mədəniyyət ümumiliyinin verdiyi imkanlardan istifadə edərək xalqlarımızın və dövlətlərimizin ümumi problemlərinin açıq müzakirəsi üçün əlverişli siyasi dialoq forumu rolunu oynayır: “Burada təmsil olunan dövlətlər bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə hörmət bəsləyir. TÜRKPA-nın əsas prioritetləri təbii ehtiyatlardan tam və səmərəli istifadə yolu ilə xalqların rifahının yüksəldilməsi, milli iqtisadiyyatların dinamik inkişaf etdirilməsi, parlament diplomatiyası sahəsində yeni uğurlara imza atılmasından ibarətdir. TÜRKPA-da təmsil olunan deputatlarımız region və digər beynəlxalq aləmin üzvü olan ölkələrin parlamentləri və digər beynəlxalq təşkilatlar ilə yeni əlaqələrin qurulması və mövcud əlaqələrin inkişaf etdirilməsində fəal iştirak edirlər.

İnsan hüquqları üzrə qanunvericiliyin təkmilləşdirilməsi, bu istiqamətdə beynəlxalq müqavilələrin ratifikasiyası prosesinin təkmilləşdirilməsi sahəsində parlamentlə ombudsmanların və milli insan hüquqları institutlarının əməkdaşlığı olduqca əhəmiyyətlidir. Milli Məclisdə keçirilmiş “TÜRKPA-ya üzv dövlətlərdə insan hüquqlarının qorunması” mövzusunda konfransda da vurğulandığı kimi, Azərbaycan Respublikasının yurisdiksiyası altında olan hər kəsin, o cümlədən uşaqların, qadınların, əlilliyi olan şəxslərin, ahılların, habelə digər sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının müdafiəsinin heç bir ayrı-seçkiliyə yol verilmədən həyata keçirilməsi ombudsmanın əsas fəaliyyət istiqaməti təşkil edir. Ombudsman öz növbəsində bununla bağlı təkliflər hazırlayaraq Milli Məclisə təqdim edir. Toplantıda proseslərin şəffaflıq və dinamiklik səviyyəsi ilə bağlı məlumatların beynəlxalq aləmə çatdırılmasının özü də Azərbaycan dövlətinin xarici siyasətinə xidmət edir. Bu nöqteyi-nəzərdən üzv ölkələr arasında məhz bu cür yüksək səviyyəli görüşlərin keçirilməsi, önəmli qərarların qəbul olunması artıq öz müsbət nəticələrini verir və bundan sonra da artan templə davam edəcək. Düşünürəm ki, bu toplantı ortaq tarixə, dinə, dilə malik dövlətlər arasında daha möhkəm əməkdaşlıqların qurulmasına və xalqlarımızın rifahının daha da yaxşılaşdırılmasına xidmət edəcək”.

Deputat mayın 24-də Ombudsman təsisatının yaradılmasının 20 illiyi münasibətilə TÜRKPA nümayəndələrinin Şuşa şəhərinə səfər etmələrinin əhəmiyyətini də qeyd edib. Bildirib ki, iştirakçılar arasında Türkiyə, Qırğızıstan, Qazaxıstan və Özbəkistanın ombudsmanları və milli insan hüquqları təsisatlarının rəhbərləri, parlament nümayəndələri yer alıb: “Səfərdə iştirakım səbəbilə qonaqların Şuşa ilə bağlı təəssüratlarına birbaşa şahid oldum. Onların Şuşaya səfər etməkdən məmnunluq duyduğunu xüsusi vurğulamaq lazımdır. Digər tərəfdən, qonaqların Şuşanın Ermənistan işğalı altında saxlandığı müddət ərzində Azərbaycana məxsus tarixi, mədəni, dini irs nümunələrinin dağıdılması və təhqir edilməsi faktları ilə yerində tanış olması beynəlxalq əlaqələr baxımından olduqca əhəmiyyətlidir”.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**



# “Taxıl OPEK”i...

## Qlobal ərzaq qıtlığı qapıda

*Mübariz ABDULLAYEV*

Rusiya-Ukrayna müharibəsi uzandıqca onun fəsadları da artır. Müharibə geosiyasi gərginliyi, qarşı duran tərəflər və onlara havadarlıq edənlər arasında aqresiyanı gücləndirməklə yanaşı, qlobal iqtisadiyyata da ciddi mənfi təsirlər göstərir. Ayrı-ayrı ölkələrdə, xüsusilə də Rusiyaya qarşı sərt sanksiyalar tətbiq edən ABŞ-da və Avropa İttifaqı (Aİ) məkanında istehsal-təchizat-satış zəncirinin qırıldığı barədə kədərli xəbərlər gəlməkdədir. Qlobal ərzaq təhlükəsizliyinə yaranan təhdidlər isə xüsusi narahatlıq doğurur.

**Həyəcan təbili**

Qlobal bazarları müşahidə və təhlil edən ekspertlər, reytinq agentlikləri artıq ərzaq qıtlığının bütün dünya üzrə qapını döydüyü barədə həyəcan təbili çalırlar. Müharibə təzə başlayanda və Rusiyaya qarşı sanksiyaların ilk paketləri işə düşəndə analitiklər bunun dünyanın ərzaq təhlükəsizliyinə mənfi təsirlərini bir qədər gec dövr üçün proqnozlaşdırırdılar. Ancaq belə görünür ki, ərzaq qıtlığı dünyanı daha tez sınağa çəkəcək və artıq bunun ağır addımlarının zəhmli səsi eşidilməkdədir.

Dünya ərzaq bazarında tələblə təklif arasında fərq, necə deyərlər, ildırım sürəti ilə artmaqdadır. Bunun da məntiqi nəticəsi olaraq inflyasiya sürətlənir, istehlakçılar, demək olar ki, hər gün yeni və daha yüksək qiymətlərlə üzləşirlər. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına əsasən, qlobal miqyasda ərzaq və yemin qiymətləri 8-20 faiz bahalaşa bilər. Təşkilatdan bildirilib ki, dünyada ərzaq məhsullarının qiymətləri indeksi cari ilin əvvəlindən bəri 3,9 faiz, 2021-ci ilin eyni dövrü ilə müqayisədə isə 24,1 faiz artıb. Bəhs olunan dövrdə buğdanın qiyməti 2,1 faiz, qarğıdalı 5,1 faiz, ümumilikdə dənli bitkilərin qiymətləri 3 faiz bahalaşıb. Hazırda buğda dünya bazarında son 14 ilin ən yüksək qiymətləri ilə ticarət olunur.

**Qıtlıq və bahalıq yaradan obyektiv və subyektiv amillər**

Dünya ərzaq bazarına təhdidlərin artmasının əsas səbəbi kimi Rusiya-Ukrayna müharibəsi göstərilir. Burada həqiqət payı böyükdür. Müharibə başlayana qədər həm Ukrayna, həm də Rusiya dünyanın ərzaq məhsulları ilə təminatında yüksək pay sahibi idilər. Verilən məlumatlara görə, sözügedən ölkələr qlobal taxıl ixracının üçdəbirini həyata keçirirdilər. Ukrayna daha bir mühüm məhsulun ixracatçısıdır. Avropa Ukraynanın günəbaxan yağının istehsalının yarısını idxal edir. Məhz bu yağdan bişmiş, konservləşdirilmiş və hazır qidalarda, eləcə də sousların və şorbaların hazırlanmasında istifadə olunur. O, eyni zamanda, qənnadı məmulatlarının və uşaq qidasının əvəz edilməsi çətin olan tərkib hissəsidir.

Rusiya da dünya ərzaq bazarında müxtəlif adlarda kənd təsərrüfatı məhsullarının mühüm ixracatçılarından biri kimi tanınır. Taxıl şimal qonşumuzun ixracında əsas yeri tutur. Bütün dünya üzrə taxıl ixracında liderlik məhz bu ölkəyə məxsusdur. Rusiya günəbaxan yağının ixracı üzrə də dünya lideri sayılır. Bu ölkə qlobal ərzaq bazarına, eyni zamanda, böyük həcmlərdə şəkər, qarğıdalı, çovdar, paxlalılar və digər məhsullar çıxartmaq imkanına malikdir. Rusiya dünyada, həmçinin kənd təsərrüfatında geniş istifadə olunan müxtəlif gübrələrin əsas ixracatçılarından biridir.

Sadalanan faktlar Rusiyanın və Ukraynanın ərzaq məhsulları üzrə ixrac potensialı barədə konkret təsəvvür yaradır. İndi isə hər iki ölkə müharibəyə cəlb olunub və bu səbəbdən də dünya ərzaq bazarı böyük həcmlərdə məhsul təklifindən məhrum qalıb. Ancaq Rusiya və Ukraynadan kənd təsərrüfatı məhsullarının ixracının məhdudlaşdırılması qobal ərzaq bazarındakı qıtlığın və bahalığın yeganə səbəbi deyildir. Məsələ burasındadır ki, taxılın və digər kənd təsərrüfatı məhsullarının bir sıra ixracatçı ölkələri indiki çətinliklər fonunda qiymətlərin artmasına açıq və yaxud dolayı yollarla rəvac verirlər. Gəlin xatırlayaq: Rusiyanın ardınca adları böyük ixracatçılar siyahısında yer alan Hindistan və Qazaxıstan da taxıl ixracının məhdudlaşdırılmasına qərar verdi. Ekspertlər sual edirlər: Nə üçün nəhəng buğda istehsalçıları və ixracatçıları sayılan ABŞ, Fransa, Kanada ehtiyacın artmasına rəğmən, qlobal ərzaq bazarına ixrac həcmlərini artırmağa tələsmir, əksinə ehtiyatlarını daha sonrakı dövr üçün qorumağa üstünlük verir. Bildirilir ki, burada məqsəd aydındır - taxıl istehsalçıları daha çox gəlir götürmək məqsədilə qiymətlərin maksimum dərəcədə artmasını gözləyirlər.

Bu arada Rusiya və ona qarşı duran dövlətlər arasında qarşılıqlı ittihamlar getdikcə daha da artır. ABŞ və Aİ dövlətləri qlobal ərzaq bazarında yaranan qıtlığa görə müharibə düyməsini basan Rusiyanı günahlandırır. Şimal qonşumuz isə ünvanına səsləndirilən ittihamları yaxına buraxmayaraq, dünyadakı ərzaq qıtlığının məsuliyyətinin bu ölkəni müharibəyə təhrik edənlərin və sanksiyaların müəlliflərinin üzərində olduğunu bildirir.

**“Taxıl OPEK”i**

ABŞ Kənd Təsərrüfatı Nazirliyinin (USDA) proqnozlarına əsasən, cari mövsümdə qlobal buğda istehsalı 4,5 milyon ton azalmaqla 774,8 milyon ton təşkil edəcək. Taxıl istehlakı isə 787,5 milyon ton həcmində proqnozlaşdırılır. Azalan istehsal və getdikcə gərginləşən geosiyasi amillər fonunda bu həcmdə istehlakın qarşılanması çətin görünür. Qlobal ərzaq bazarında buğda və digər pozisiyalar üzrə təklifin kəskin azalması gözlənilən qıtlığın qarşısını almaq üçün təcili tədbirlər görülməsinin zəruriliyini gündəmə gətirib. İndi söhbət yalnız kasıb Afrika və yaxud Yaxın Şərq coğrafiyasının əhalisinin ərzaq məhsulları ilə təchizatının daha da pisləşməsindən getmir. İndi təhlükə o qədər ciddi və yaxındır ki, obrazlı ifadə etsək, bütün dünya eyni qazanda qaynayır.

Vəziyyətdən çıxış yolları kimi müxtəlif variantlar təklif olunur. Ukraynanın Aqrar Siyasət Nazirliyi “taxıl OPEK”inin yaradılması ideyası ilə çıxış edib. Təklifin mahiyyəti ondan ibarətdir ki, dünya üzrə iri taxıl istehsalçıları olan ölkələr bir qurumda birləşirlər və koordinasiyalı fəaliyyət həyata keçirirlər. Təklifə əsasən, bu siyahıda ABŞ, Kanada, Braziliya, Argentina və Ukrayna yer alır. Nə qədər qəribə görünsə də, hətta ərzaq qıtlığı fonunda da siyasi ambisiyalardan imtina müşahidə olunmur. Belə ki, “taxıl OPEK”ində Rusiya kənarda saxlanılır.

**“Yaşıl dəhliz” açılsın**

Son günlərdə qlobal ərzaq bazarında taxıla artan tələbatı ödəmək üçün Ukraynanın anbarlarında yığılan böyük ehtiyatların daşınması da müzakirə edilən məsələlər sırasındadır. Söhbət, təxminən iyirmi milyon ton taxıl ehtiyatının daşınmasından gedir.

Ukraynanın limanları Rusiya qüvvələri tərəfindən mühasirəyə alındığına görə bu qədər taxılı bazarlara çıxartmaq mümkün olmur. Vəziyyətin ciddiliyini nəzərə alan ayrı-ayrı ölkələr Ukraynanın Qara dəniz limanlarından “yaşıl dəhliz” açılması təklifi ilə çıxış edib. Taxıl daşınacaq dəhlizin Odessadan Bosfor boğazınadək uzanacağı bildirilir. Hazırda dəhlizin təhlükəsizliyinin təmin olunmasının detalları araşdırılır. Rusiya belə bir dəhlizin açılmasına qarşıdır və hərbi dəniz qüvvələrini geri çəkməyəcəyini bəyan edib. Şimal qonşumuz belə bir mövqe tutmasını həm də onunla əlaqələndirir ki, Ukrayna silahlı qüvvələri tərəfindən limanlarda çoxlu sayda minalar düzülüb. İndi həmin minalar sahildən uzaqlaşaraq uzun məsafələr boyu səpələnib və böyük təhlükə mənbəyidir. ABŞ və Avropa ölkələri isə “yaşıl dəhliz”ın açılmasında israrlı görünür. Plana görə, bütün minalar zərərsizləşdiriləcək, dəhliz həmfikir ölkələrin göndərdikləri hərbi gəmilər və digər texnika vasitəsilə qorunacaq. ABŞ rəsmiləri limanların Rusiya tərəfindən blokadasını yarmaq üçün Ukraynaya uzaqmənzilli gəmi əleyhinə raketlər göndərmək planı üzərində iş apardığını bildiriblər. Verilən məlumatlarda vurğulanır ki, Danimarka 20 ölkənin qəbul etdiyi təhlükəsizlik paketi çərçivəsində Ukrayna sahillərini qorumaq üçün raketlər göndərəcəyini açıqlayıb. Təxminən 200 mil mənzilli gəmi əleyhinə raketlər Ukrayna limanlarını və Qara dənizin şimal-qərb hissəsini mühasirəyə alan Rusiya gəmilərini hədəf seçməyə imkan verəcək. Ukrayna rəsmilərinin sözlərinə görə, hazırda Rusiyanın Qara dənizdə altı gəmisi və iki sualtı qayığı var. Bütövlükdə, taxıl ixracından asılı olan bütün ölkələrin “yaşıl dəhliz”ın yaradılması planına qoşulacaqları gözlənilir.

**“Yaşıl dəhliz” ideyası Çinin gündəliyində**

Ukraynadan taxılın daşınması üçün nəzərdə tutulan “yaşıl dəhliz”ın yaradılması ideyası Çinin də gündəliyində yer alır. Ölkənin xarici işlər naziri Van İ Almaniyadan olan həmkarı Annalena Berbok ilə telefon danışığında Rusiyadan və Ukraynadan ərzağın maneəsiz daşınması üçün humanitar “yaşıl dəhliz”in mümkün qədər tez açılmasının zəruriliyini bəyan edib. Çinin xarici siyasət idarəsinin rəhbəri bildirib ki, ölkəsi qlobal ərzaq qıtlığının qarşısını almaq üçün bütün tərəflərlə işləməyə hazırdır. “Çin beynəlxalq birliyin narahatlığına səbəb olan məsələlərin həllində heç vaxt kənarda qalmır”, - deyə Van İ vurğulayıb.



# Avtomobillər yenilənir

## Sahiblərinə pul veriləcək

*Nicat PAŞA*

Həm dünyada, həm də ölkəmizdə istismar müddətini başa vurmuş, ekoloji cəhətdən təhlükəli hesab edilən nəqliyyat vasitələrinin utilizasiya məsələsi aktual olaraq qalmaqdadır. Ölkəmizdə “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”ndan irəli gələrək bu sahədə əhəmiyyətli addımlar atılır. Aparılan islahatların uğurlu nəticələrindən biri də Vergi Məcəlləsində edilən son dəyişiklikdir. Xatırladaq ki, Vergi Məcəlləsinə edilən dəyişiklikdən sonra 2022-ci il yanvarın 1-dən istehsal tarixi 3 il, mühərrikinin həcmi 2500 kubsantimetrə qədər olan hibrid avtomobillərin idxalı və satışı 3 il müddətinə vergidən azad olunub.

Ötən gün isə Ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə mətbuata açıqlamasında bildirib ki, Azərbaycanda köhnə və istismar müddətini başa vuran avtomobillər utilizasiyaya göndəriləcək. Nazirlik rəsmisi onu da əlavə edib ki, bunun əvəzində isə vətəndaşların yeni avtomobillər almaları üçün təşviqat işləri aparılacaq: “Hazırda Azərbaycandakı avtomobillərin 80 faizinin istehsal tarixi 10 ildən çoxdur. Bu isə təhlükənin nə qədər ciddi olduğundan xəbər verir. Ölkə başçısının tapşırığına uyğun olaraq hazırlanan dövlət proqramının əsas məqsədi ekoloji təmiz nəqliyyat vasitələrindən istifadəni təşviq etməkdir. İstismar müddətini başa vuran, ekoloji cəhətdən təhlükəli hesab edilən nəqliyyat vasitəsini utilizasiyaya göndərən avtomobil sahiblərinə pul vəsaiti veriləcək və ya digər güzəştlər tətbiq ediləcək”.

Nazir müşaviri onu da qeyd edib ki, avtomobil sahibləri maşınını utilizasiyaya göndərməkdə tam sərbəst olacaq. Yəni bu, onların könüllü seçimidir.

Mövzu ilə bağlı “Yeni Azərbaycan”a danışan nəqliyyat eksperti Elməddin Muradlı deyir ki, cənab Prezidentin göstərişi ilə “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”ndan irəli gələrək bu məsələnin üzərində xeyli vaxt idi iş gedirdi və qısa müddətdə icra olunması nəzərdə tutulurdu. Lakin pandemiya və müharibə bu məsələnin xeyli uzanmasına gətirib çıxardı: “Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu sahədə böyük işlər görür, təbliğat işləri aparır. DYP sürücülər arasında maarifləndirmə işlərini həyata keçirir. Çünki istənilən halda hər kəs nəzərə almalıdır ki, burada əsas məqsəd yol hərəkətinin təhlükəsizliyini təmin etmək, yol-nəqliyyat hadisələri zamanı ölüm və xəsarət risklərini aşağı salmaq, ən vacibi isə ətraf mühitin qorunmasını təmin etməkdir. Köhnə avtomobillər böyük bir təhlükə mənbəyidir. Çünki həmin avtomobillərin böyük əksəriyyətində təhlükəsizlik elementləri sıfır səviyyəsindədir. Belə olan halda həmin nəqliyyat vasitələrinin idarə edilməsi məqbul deyil”.

Beynəlxalq təcrübədən danışan E.Muradlı bildirib ki, artıq bir çox dövlətlər müəyyən addımlar atıblar, həmin kateqoriyadan olan avtomobillərin çıxdaş edilməsi məsələsi öz həllini tapıb. Müxtəlif ölkələr fərqli yanaşmalar nümayiş etdirir: “Elə ölkələr var ki, özü avtomobil istehsal edir və buna görə də vətəndaşlardan köhnə avtomobilləri alır, sərfəli şərtlərlə onlara yenisini təqdim edir. Deyək ki, aşağı faizli kreditlə və yaxud nağd alışda başqalarına nisbətən daha ucuz qiymət təklif olunur. Belə olan halda əlbəttə ki, vətəndaş da avtomobilini yeniləməyə maraq göstərir. Bilir ki, bu, onun sağlamlığı, təhlükəsizliyi üçün önəmli olan bir addımdır. Hər kəs üzərinə düşəni etməlidir. İnsanlar düşünməməlidirlər ki, dövlət onların avtomobillərini əllərindən alır. Yox, sadəcə dövlət təhlükəsizlik baxımından insanların sağlamlığını düşünür. Və bu addımın atılması da hər bir vətəndaşın sağlamlığının təmin edilməsinə yönəlmiş bir addımdır”.

Ekspert eyni zamanda, yaranmış vəziyyətdən öz maraqlarına uyğun hərəkət edənlərdən də söz açıb: “İnsanları vəziyyətdən maraq güdməməyə, bunu alver predmetinə çevirməməyə çağırıram. Məndə olan məlumata görə, artıq bəzi adamlar bir neçə köhnə avtomobili alıb saxlayır ki, dövlət yüksək məbləğdə pul verəcək. Bu artıq alverçilikdir, dilənçilikdir. Konkret olaraq fürsətçilik deyərdim. Bu, dövlətin yürütdüyü siyasətlə uyğun gələn bir şey deyil. Niyə alverə çevirirsən? Hansı ki, həmin adamın bəlkə də 2 və ya daha çox ən bahalı avtomobili var. Gedir, 4-5 də köhnə avtomobil alır ki, dövlət tərəfindən nə qədər pul verilsə, alsın, qoysun cibinə. Bu cür yaramaz insanların əhatəsində proqramın icrası, doğrudur, bir az vaxt aparacaq, müəyyən çətinliklər yaradacaq. Amma biz bu addımı atmalıyıq. Proses həyata keçirilməlidir. Bir çox ölkələrin təcrübəsi var və biz də bu təcrübədən yararlanmalıyıq”.

“Bizdə müştərək avtomobil istehsalıdır, yüksək səviyyədə deyil. Düzdür, hər bir köhnə avtomobilin qarşılığında yenisini təklif edə bilmirik. Amma avtomobilin dəyəri qədər pul vəsaiti vermək və yaxud da həmin vətəndaşlara xaricdən təzə və ya ikinci əl avtomobil gətirdikdə həmin şəxslərin gömrük ƏDV-si və ya aksiz vergisinin çox aşağı qiymətlə hesablanması kimi müəyyən addımlar atmaq olar. Təbii ki, bəzi vətəndaşlarımız bundan faydalanacaqlar. Amma ola bilər ki, həyat şəraiti yalnız hansısa avtomobildən asılı olan insanlar var. Düşünürəm ki, onları da fərdi qaydada dövlət tərəfindən nəzərə almaq mümkündür və nəzərə alacaqlar”, - deyə E.Muradlı fikirlərinə əlavə edib.

***Rusiya Bolonya təhsil sistemindən imtina etmək niyyətindədir. Ölkənin Təhsil Nazirliyinin yaydığı rəsmi məlumatda bildirilir ki, Bolonya sistemindən imtina pedaqoqların hazırlığına müsbət təsir göstərəcək. Belə ki, Bolonya sistemindən imtina və ixtisasyönümlü təhsilə keçid ölkədə pedaqoq hazırlığının keyfiyyətini artıracaq.***

# Rusiya imtina edir...

## Boloniya sistemini yeni təhsil sistemi ilə əvəz edəcək

*Nicat*

Daha əvvəl isə təhsil naziri Valeri Falkov Rusiyanın özünün yeni bir təhsil sistemi quracağını, Bolonyadan imtina edəcəklərini bəyan etmişdi. Qeyd edək ki, Rusiya Bolonya sisteminə 2003-cü ildən qoşulub.



**Bolonya nədir?**

Bolonya sisteminin başlanğıcı 1970-ci illərin ortalarına, Avropa nazirlər sovetinin təhsil sahəsində əməkdaşlıqla bağlı birinci proqram haqda qətnaməninin qəbul etdiyi vaxtlara təsadüf edir. Prosesin rəsmi başlanğıcı isə 1999-cu il iyunun 19-u hesab olunur. Həmin tarixdə Bolonya şəhərində 29 Avropa ölkəsinin təhsil nazirlərinin xüsusi konfransında "Avropa ali təhsil məkanı" bəyannaməsi və ya Bolonya bəyannaməsi qəbul olunur. Bolonya sistemi digər ölkələr üçün də açıqdır. Sonralar hökumətlərarası görüşlər Praqada (2001), Berlində (2003), Bergendə (2005) və Londonda (2007) keçirilir. Hazırda Bolonya sistemi 46 ölkəni birləşdirir.

Bolonya sisteminin əsas məqsədləri: Avropa ali təhsil məkanının vətəndaşlarının işlə təmin olunması imkanlarının sürətlə inkişaf etdirilməsində əsas istiqamətverici sistem kimi qurulması; Avropanın intellektual, mədəni, sosial və elmi-texniki potensialının formalaşması və möhkəmlənməsi; Dünyada Avropa ali məktəbinin nüfuzunun yüksəlməsi; Digər təhsil sistemləri ilə tələbə, pul, nüfuz mübarizəsində rəqabəti təmin etmək; Milli ali təhsil sistemləri ilə uyğunlaşmaya və müqayisə olunmağa nail olmaq; Təhsilin keyfiyyətinin yüksəlməsi; Avropa mədəni dəyərlərinin inkişafında universitetlərin mərkəzi rolunun artması. Bu dəyərlərə görə, universitetlər Avropa düşüncəsinin (və ya şüurunun) daşıyıcısı hesab olunur.

Bəyannamənin əsas müddəaları:

Müqayisə olunan dərəcədə qəbul edilmiş sistemlər, o cümlədən diplom, işlə təmin olunma və Avropa ali təhsilinin beynəlxalq rəqabətdə güclü olması.

İkipilləli təhsilə giriş: dərəcəyə qədər və dərəcədən sonra. Birinci pillə 3 ildən az çəkmir.

İkinci pillə magistr və ya doktor dərəcəsi almağa doğru aparır. Avropa sisteminin tətbiq edilməsi tələbənin həyat fəaliyyətinin sürətli inkişafına dəstək üçün zəhmətsevərlik vahidinin hesablanması üçündür (kredit sistemi). "Ömür boyu təhsil almaq" konsepsiyası çərçivəsində işləməyi bacaran və sistemi davamlı edən ECTS (European Credit Transfer System) qəbul etmək təklif olunur. Bu iştirakçıların fəallığını inkişaf etdirmək böyük əhəmiyyət kəsb edir:

- Avropa regionunda müəllim və digər personalın fəal olmasını təmin etmək;
- Transmilli təhsil standartlarını yaratmaq;
- Uyğun kriteriyaların və metodologiyaların işlənilməsi məqsədilə keyfiyyətin təmin olunmasında Avropa əməkdaşlığına kömək etmək;
- Avropa ali təhsilinə, əsasən də dərs planlarının inkişaf etdirilməsi sahəsinə, institutlararası əməkdaşlığın, ümumi təhsil proqramının və sürətlik sxeminin, təcrübi hazırlığın və elmi tədqiqatların aparılmasına ciddi nəzarəti təmin etmək.

Ölkələr Bolonya sisteminə könüllü olaraq, müvafiq bəyannamənin imzalanması yolu ilə qoşula bilər. Bu zaman həmin ölkələr bəzi öhdəlikləri üzərlərinə götürürlər. Öhdəliklərdən bəzilərinin zaman məhdudiyyəti var.

**Hansı ölkələr?**

"Avropa ali təhsil məkanı" Bolonya sisteminin və bəyannaməsinin iştirakçıları bu ölkələrdir: Albaniya, Andorra, Ermənistan, Avstriya, Azərbaycan, Belçika, Bosniya və Hersoqovina, Bolqarıstan, Xorvatiya, Kipr, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Almaniya, Yunanıstan, Vatikan, Macarıstan, İslandiya, İspaniya, İrlandiya, İtaliya, Latviya, Litva, Lüksemburq, Malta, Çernoqoriya, Moldova, Niderland, Norveç, Polşa, Portuqaliya, Makedoniya, Rumıniya, Rusiya, Serbiya, Slovakiya, Sloveniya, İsveç, İsveçrə, Türkiyə, Ukrayna, Böyük Britaniya.

**Ölkəmizdə isə...**

Azərbaycan Bolonya Bəyannaməsini imzalayanda onun bəzi müddəaları, prinsipləri artıq ölkəmizdə tətbiq olunurdu. Belə ki, 1992-ci ildə qəbul olunmuş "Təhsil haqqında" Qanuna əsasən ikipilləli ali təhsilə, çoxballı qiymətləndirmə sisteminə keçilmiş və bu sahələrdə xeyli müsbət təcrübə toplanmışdı. 2005-ci ildən isə bu sahədə aparılan işlərin Bolonya sisteminin tələblərinə uyğunlaşdırılmasına, bəyannamədə nəzərdə tutulan digər müddəaların, o cümlədən kredit sisteminin (Avropa Kredit Transfer Sisteminin) tətbiqinin, təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsinin, mobilliyin genişləndirilməsinin, ixtisasların və diplomların qarşılıqlı tanınmasının, diploma əlavələrin Avropa ölkələrinin ali təhsil haqqında müvafiq sənədlərinə uyğunlaşdırılmasının, məzunların işlə təminatına nail olunmasının, ali təhsil sisteminin cəlbediciliyinin təmin edilməsinin gerçəkləşdirilməsinə başlanılıb. İlkin mərhələdə ölkənin 10 ali məktəbində bəzi ixtisaslarda eksperimental qaydada tətbiq olunan kredit sistemi sonra bütün ali məktəbləri və ixtisasları əhatə edib. Prosesin tətbiqi ilə bağlı bir sıra normativ sənədlər hazırlanaraq təsdiq edilib.

Ölkəmizdə təhsilin dünya təhsil sisteminə, xüsusən də ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiya prosesi və Bolonya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədi ilə ölkə başçısı tərəfindən 31 yanvar 2008-ci il tarixində "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalanıb. Həmin sərəncama əsasən "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" qəbul olunaraq icrası təmin edilib. Bütün bunların nəticəsi olaraq deyə bilərik ki, son illərdə Bolonya prosesi ölkəmizdə tam tətbiqini tapıb.

**Müqayisə olunan dərəcədə qəbul edilmiş sistemlər**

# Yarı insan, yarı canavar

***"Adam öz əzabları ilə fəxr etməlidir - hər bir əzab bizim böyüklüyümüzdən xəbər verir". Bu, alman yazıçısı, Nobel mükafatı laureatı Herman Hessenin dünya şöhrətli "Yalquzaq" əsərindən sitatdır. Elə anlar olur ki, özümüzü bu əsərin qəhrəmanı kimi hiss edirik. Real həyatdan uzaqlaşıb, insanlardan təcrid olunmaq istəyirik. Yalquzaq xisləti ruhumuza bir anlıq hakim kəsilir. Şübhəsiz, bu obrazı yaradan Hesse özü də bu hisslərə dərindən bələd olub.***



*Müşfiqə BAYRAMLI*

1927-ci ildə yazdığı "Yalquzaq" əsərində müəllif bir yandan çağdaş şəhərin parıltılı həyatını xəyal edir, o biri yandan vəhşi instinktlərin ardınca gedirdi. Hesse öz romanı haqqında belə deyirdi: "Əlbəttə, mənim bu hekayətimi necə yozmağı əvvəlcədən oxucunun boynuna qoya bilmərəm, heç istəmirəm də. Qoy kim necə anlayır, elə də başa düşsün, nə lazımsa,




onu da götürsün. Ancaq kaş onlar görəydilər ki, yalquzağın hekayəti xəstəlikdən, böhrandan danışsa da, insanı ölümə, fəlakətə deyil, sağlamlığa, dirçəlişə səsləyir".

"Yalquzaq" romanı yarı əhliləşmiş, yarı vəhşi bir tip olan Harri Haller haqqındadır. Burada modern insanın düşdüyü çıxılmaz vəziyyət, onun faciəsi ifadə olunur. Baş qəhrəman Harri Haller yaşı əllini haqlamış kişidir. İnsanlardan ayrı düşmüş Harri ilə cəmiyyət arasında dərin uçurum var. Əsərdə onun özünü yalquzaq adlandırdığı qeydlərinə də yer verilib. Ekzistensial böhran içində olan Harri özünü yarı insan, yarı canavar kimi hiss edir. Qeydlərində də yazdığı kimi, iki qanlı düşmənin bir ruhda birləşməsi onun həyatını olduqca çətinləşdirir. İntihar etməyi düşünür, lakin bu vaxt Hermine ilə qarşılaşır. Həyatın nə qədər dəyərli olduğunu ona sübut etməyə çalışan Hermine belə yalquzağın fikrini dəyişdirə bilmir.

Ən nəhayət, "Sehrli teatr" öz işinə başlayır. Burada nəyin gerçək, nəyin yalan olduğunu anlamaq qeyri-mümkündür.

Əsərə qısaca nəzər yetirək:

Yalquzaq ilk baxışdan adlı-sanlı, qeyri-adi, nadir istedada malik bir adam təsiri bağışlayır. Üz-gözündən müdriklik yağır, zərif üz cizgilərinin tez-tez dəyişilməsindən bilinir ki, çox maraqlı, dəyişkən, zərif, həssas mənəvi dünyası var.

Onun baxışlarından kinayədən çox kədər yağır - ümidsiz, hüdudsuz kədər! O baxışların mənası artıq həyat vərdişinə çevrilmiş lal bir ümidsizlikdir.

Yalquzağın baxışları zəmanəsinin dərin qatlarına işləyərək oradakı keşməkeşləri, puç həvəsləri, mənasız iddiaları, dayaz mənəvi aləmin zahiri parıltısını ifşa edir. Bu azmış kimi daha dərinlərə, daha uzaqlara baş vurur, eyiblərimizin mənbəyinə, mənəviyyatımızın dibinə, mədəniyyətimizə qədər gedib çıxır. O baxışlar deyir: "Bax, gör biz necə vəhşiyik. Bax, budur insan".

Oxuduqca əmin olursan ki, bu əzabkeşin xəstəliyi təbiətində nəyinsə çatışmazlığı ilə bağlı deyil, əksinə, ona bəxş olunmuş istedadının bacarığı ilə dil tapa bilməməsindən irəli gəlir. Haller əzab çəkmək dahisidir. Nitsşe kimi o da özündə nəhayətsiz bir əzabkeşlik istedadı tərbiyə eləyib. Bədbinliyinin əsas səbəbi dünyaya yox, məhz özünə nifrətidir, çünki yer üzündəki təsisatdan, yaxud ayrı-ayrı şəxslər haqqında amansızcasına danışanda heç vaxt yaxasını kənara çəkmir, ilk oxu özünə tuşlayır, əvvəlcə özünü inkar edir, özünü lənətləyir.

Şəxsiyyətini əzməsələr də, özünə nifrət etməyi ona öyrədə bilmişdilər. Buna görə də ömrü boyu zəngin fantaziyasını, idrakının gücünü özünə - o günahsız, o nəcib varlığa qarşı yönəltmişdi.

Söhbət başqalarından, yadlardan düşəndə isə rəşadətlə, təmkinlə hamını sevməyə, onlara münasibətdə ədalətli olmağa çalışır, heç kəsi incitməyə qıymır, çünki İncildəki "Bəşər övladını sev" hökmünü də özünənifrət bacarığı ilə bərabər onun beyninin dərinliklərinə yeridiblər. Beləcə onun bütün həyatı "Özünü sevmədən başqalarını sevə bilməzsən - elə özünə nifrət etmək də onun kimi" devizi altında keçib, axırda da bunlara tən gələn o dəhşətli tənhalıq, ümidsizlik, aşkar sezilən eqoizm onun şəxsiyyətini çulğayıb.

Hallerin qeydlərindən: "Orta əsrlərin adamı bizim bugünkü həyatın qayda-qanunlarını qəddarlıqdan da betər dəhşət, vəhşilik adlandırar! İnsan həyatı o vaxt əzaba - cəhənnəm əzabına dönür ki, iki mədəniyyət, müxtəlif dinlər eyni vaxta düşür. Antik dövrün adamı orta əsrlərdə yaşamalı olsa, min əzab içində ölər - hər hansı bir vəhşini bizim sivilizasiya dövrünə gətirsən, o da eləcə! Ancaq elə zəmanələr var ki, bütöv bir nəsil iki dövrün, iki həyat tərzinin arasında qalır, ona görə də hər cür təbiiliyi, hər cür adət-ənənəni, hər cür dayağı və məsumluğu itirir... Əlbəttə, bunu hamı eyni dərəcədə duya bilməz. Nitsşe kimi şəxsiyyət isə bütöv bir nəsli qabaqladı, bu günün eybəcərliklərini əvvəlcədən hiss etdi, əzab çəkməli oldu. Heç kəs də heç nə başa düşmədi və onun tək-tənha daşıdığı əzabları bu gün minlərlə adam çəkir..."

Haller də eləcə bir keçid dövrünə düşüb göydən asılı qalan, məsumluğunu itirən, ümumbəşəri qisməti - insan həyatının bütün şübhə-tərəddüdlərini olduğundan daha betər şəkildə şəxsi iztirabları, cəhənnəm əzabı kimi yaşamağa məcbur olan insanlardandır.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


# Meymunçiçəyi sərhədləri aşır

## Dünyada xəstəliyə yoluxanların sayı 130 nəfəri ötüb



*MİKAYIL*

Meymunçiçəyi nadir virus infeksiyasıdır. Həmin xəstəlik insana əsasən heyvandan keçir. Yoluxanlar ilə təmasda olmuş şəxslər üçün üçhəftəlik karantin tətbiq etməyi məsləhət görürlər. İlk qaydaların isə yaxın günlərdə aşkarlana biləcəyi gözlənilir. Xəstəlik çox vaxt yüngül keçir və pasiyentlərin əksəriyyəti bir neçə həftə ərzində sağalır. Lakin bəzi hallarda ağırlaşmalar da baş verir. Mütəxəssislərin sözlərinə görə, yüksək hərarət, baş və əzələ ağrısı, limfa düyünlərinin şişməsi, bel ağrıları, titrətmə və yorğunluq xəstəliyin ilk simptomlarıdır. Həmçinin əvvəlcə üzdə, sonra isə bədənin digər hissələrində səpmə əmələ gələ bilər.

Çiçək virusu ilə eyni ailədəndir, ona görə də xəstəliyin gedişatı da çiçək xəstəliyi ilə çox oxşardır. Xəstəlik qızdırma ilə başlayır, baş və əzələ ağrıları ilə davam edir. Qızdırmadan bir neçə, təxminən üç gün sonra səpgilər əmələ gələrək bədənə yayılır.

Dünyada bu virusun aşkarlandığı ölkələrin və yoluxma ilə bağlı təsdiq olunmuş halların sayı getdikcə artır. ÜST indiyədək dünya üzrə insanlar arasında meymunçiçəyi infeksiyasına 131 yoluxma halı qeydə alıb. Belə ki, dünyanın 17 ölkəsində meymunçiçəyinə yoluxma halı aşkarlanıb. Həmçinin Sudan və Argentina ehtimal olunan yoluxmalarla bağlı araşdırma aparır. Ən çox yoluxma İspaniya (40 nəfər), Portuqaliya (37 nəfər) və Böyük Britaniyada (20 nəfər) qeydə alınıb. Eyni zamanda, hazırda araşdırılan 106 yoluxma halından 51-i İspaniyadadır.

Təşkilat yoluxma hallarının sayının artacağı ilə bağlı xəbərdarlıq edir.

Hansı tədbirlər görülür?

Koronavirusdan fərqli olaraq, çiçək əleyhinə hələ uşaqlıqda peyvənd vurulan dövrdən sonra doğulan gənclər virusa daha çox məruz şəxslər kimi göstərilib. Hesab olunur ki, uşaq yaşında peyvəndlənmiş şəxslər bu baxımdan qorunublar, ona görə gənc nəsil və adıçəkilən yaxşı dövrdən sonra doğulub peyvəndlənməyən insanlar xüsusilə diqqətli olmalıdırlar.

Bu məqsədlə də meymunçiçəyi əleyhinə vaksin istehsal edən bir sıra şirkətlər fəaliyyət göstərir. Avropa İttifaqının üzvlüyündən çıxan və bu səbəbdən Brüssel üçün "xarici ölkə" hesab edilən Böyük Britaniya şirkətləri də bu sıradadır.

Eləcə də Almaniyanın səhiyyə qurumu yeni vaksinlənmə kampaniyasına başlamağı planlaşdırır. Lakin bu dəfə əhalinin meymunçiçəyinə qarşı immunlaşdırılması nəzərdə tutulur. Alimlər hesab edirlər ki, əvvəlcə mövcud vaksinlərin effektivliyi, onu haradan almağın və yerli istehsalın təşkilinin mümkün olub-olmaması öyrənilməlidir.

Sevindirici haldır ki, Azərbaycan ərazisində bugünkü tarixədək meymunçiçəyi xəstəliyinə şübhəli hallar qeydə alınmayıb.



# 62 yaşlı Bakı funikulyorumuz

## Avropanın ən yaxşı funikulyorları sırasında ilk 5-likdədir

*MÜŞFİQƏ*

***Şəhərlər şəhəri Bakını daha da gözəlləşdirən bir məkandan - 62 yaşlı Bakı funikulyorumuzdan danışacağıq. 1960-cı ildə mayın 5-də istifadəyə verilən funikulyor şəhər sakinləri tərəfindən maraqla qarşılanmış, onlar üçün əsl hədiyyə olmuşdu. Tanınmış dövlət xadimi, əməkdar mühəndis Əliş Ləmbəranskinin təşəbbüsü ilə tikilən funikulyorun ilk qatarları Ukraynanın Xarkov şəhərində hazırlanaraq buraya gətirilmişdi.***

İki stansiyadan ibarət funikulyorun vaqonları saniyədə 2,5 metr sürətlə hərəkət edərək bir stansiyadan digərinə 4 dəqiqəyə çatırdı. Vaqonlararası intervalı 10 dəqiqə olan funikulyor saatda orta hesabla 2 min sərnişini daşımaq imkanına malik idi.

Funikulyorun cəmi 2 stansiyası var. "Bəhram Gur" stansiyası Azneft meydanına,"Şəhidlər Xiyabanı" stansiyası isə Dağüstü parka çıxır. Hər iki stansiyadan vaqonlar eyni vaxtda eyni relslə stansiyanı tərk edir, yolun tam yarısında birbiri ilə qarşılaşanda ayırıcı relslərlə ötüşürlər. Vaqonlar bir-birini ötüb keçdikdən sonra yenidən eyni relslə hərəkət edirlər.

Bir sözlə, Şəhidlər xiyabanı ilə Dənizkənarı Milli Parkı ən qısa yolla birləşdirən yeganə nəqliyyat vasitəsidir. O, nəinki, nəqliyyat vasitəsi, həm də paytaxtımızın panoramını seyr etmək üçün ən gözəl məkandır. Şəhərimizə açılan mənzərə bütün möhtəşəmliyi ilə səni salamlayır, seyrinə çağırır. Günügündən daha da müasirləşən və yenilənən 62 yaşlı funikulyor bazar ertəsindən başqa, hər gün səhər saat 10:00-dan axşam 22:00-a kimi işləyir, sanki sərnişinlərini "göyün yeddinci qatı"na qaldırır. Funikulyorun iş prinsipinə görə, 1 sərnişinin olması belə qatarın işə düşməsinə kifayətdir.

Heç də təsadüfi deyil ki, Avropanın ən yaxşı funikulyorları sırasında ilk 5-likdə qərarlaşıb.

Funikulyorumuz yerli sakinlərlə yanaşı, turistlərin də ən çox üz tutduqları məkanlardan biridir. Öz fərqli və maraqlı memarlıq üslubu ilə görənlərin diqqətini çəkir. Xüsusilə də, Milli Parkda səhər yürüşlərini edənlər Dağüstü parka getmək üçün funikulyora üz tuturlar.

**2012-ci ildə yeni nəfəs verilib**

Funikulyor dörd dəfə təmir səbəbiylə bağlandılıb. İlk dəfə 1980-ci illərin sonlarında qəza vəziyyətində olduğu əsas gətirilərək istifadəsi dayandırılıb. Uzun müddət istifadəsiz qalan bu nəqliyyat vasitəsi 2001-ci ilin sonunda təmir edilərək yenidən istifadəyə verilib. Növbəti dəfə isə 2007-ci ildə təmir olunub. Bu təmirdən sonra vaqonların hərəkəti zamanı yaranan müxtəlif səs-küylər minimuma endirilib. Lakin budəfəki təmir də funikulyoru uzunömürlü etməyib. Müəyyən fasilələrlə işləyən funikulyor 2011-ci ilin aprelində yenidən əsaslı təmirə dayandırılıb.

Və nəhayət, 23 may 2012-ci ildə əsaslı təmir və yenidənqurmadan sonra yenidən istifadəyə verilib. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişdilər.

Qatarlar xüsusi sifarişlə Almaniyadan, kompüter sistemi və avadanlıqlar isə digər xarici ölkədən gətirilib. Hər vaqon 28 oturacaqla təchiz olunub, bundan əlavə 12 nəfər üçün ayaqüstü sərnişin yerləri ayrılıb. Kompüter sistemi ilə idarə olunan funikulyorda hansısa texniki nasazlıq aşkarlandıqda dərhal mərkəzə məlumat ötürülür. İndiyədər heç bir nasazlıq baş verməyib. Hər həftənin 1-ci günləri mütəxəssislər burada profilaktik işlər görür, sistem yoxlayırlar. Funikulyorda qatarlar bir kanata bağlıdır və bir xətlə hərəkət edirlər. Onlarda nə mühərrik, nə də digər qurğu olur.

Burada sərnişinlərin rahatlığını təmin etmək üçün gözləmə zalı da yaradılıb. Funikulyordan istifadə edə bilmək üçün öncə ödəniş terminalından kart əldə etmək lazımdır. Terminal 3 dildə - Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Qeyd edək ki, bir gediş sadəcə 1 manatdır. 6 yaşından aşağı uşaqlar üçün isə giriş pulsuzdur.



*İdman*



# Boksçumuz İrəvanda erməniyə qalib gəldi

Ukrayna millisində çıxış edən azərbaycanlı boksçu Elmir Nəbiyev Ermənistanın paytaxtı İrəvanda keçirilən Avropa çempionatında yerli idmançıya qalib gəlib.

54 kq çəki dərəcəsində çıxış edən dəri əlcək sahibi ilk görüşündə Canik Sahakyandan güclü olub. O, erməni rəqibini 3:2 hesabı ilə üstələyib.

*MURAD*

# Beynəlxalq turnirdən: 1 qızıl, 1 gümüş, 2 bürünc medal



Özbəkistanın Fərqanə şəhərində yeniyetmə boksçular arasında İsrailjon Rüstəmovun xatirəsinə həsr olunan beynəlxalq turnirə yekun vurulub.

Azərbaycan Boks Federasiyasının Mətbuat Xidmətindən verilən məlumata görə, yarışın sonuncu günündə millinin 2 boksçusu çempionluq döyüşünə çıxıb.

Məhəmmədəli Aşurəliyev (54 kq) həlledici qarşılaşmada qazaxıstanlı Bekkoja Jaksılıqla üz-üzə gəlib. Gərgin keçən döyüşdə qələbə qazanan Aşurəliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Tağı Nəsibovun (50 kq) finaldakı rəqibi isə özbəkistanlı İlhom Erqaşev olub. Rəqibinə məğlub olan Nəsibov gümüş medalla kifayətlənib.

Beləliklə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Tacikistan və Qırğızıstandan 164 idmançının qatıldığı yarışı milli komanda 1 qızıl, 1 gümüş və 2 bürünc medalla bitirib. Aşurəliyevin 1-ci, Nəsibovun 2-ci olduğu turnirdə Məhəmmədəli Qasımzadə (57 kq) və Ziya Həsənov (66 kq) 3-cü yeri tutublar.

Qeyd edək ki, turnirin yekununda Azərbaycan millisinin baş məşqçisi Vaqif Kazımova və referi Fikrət Hacıyevə fəxri diplomlar verilib.



# Qurban Qurbanova "Şöhrət" ordeni təqdim olunub

Azərbaycan futbolunun inkişafında xidmətlərinə görə Prezident İlham Əliyevin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuş "Qarabağ" komandasının baş məşqçisi Qurban Qurbanova ali mükafatı təqdim edilib.

Mükafatı AFFA prezidenti Rövnəq Abdullayev verib. Abdullayev Qurbanovu "Şöhrət" ordeni ilə təltif olunması münasibətilə bir daha təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Baş məşqçi isə verilən yüksək qiymətə görə dərin minnətdarlığını bildirib.

## Allah rəhmət eləsin!

"Yeni Azərbaycan" qəzetinin kollektivi "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyevə və qardaşı Rasim Quliyevə əmiləri, Azərbaycanın tanınmış ziyalısı

**İDRİS QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4810**
**Sifariş: 1469**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas